AZƏRBAYCAN BAROMETRİ №4 (8) Aprel / 2020

# Azərbaycanda yaşlılar: qayğı və rifah

## ANALİTİK HESABAT



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

AZƏRBAYCAN BAROMETRİ
Səkkizinci buraxılış

Aprel 2020

# AZƏRBAYCANDA YAŞLILAR:
QAYĞI VƏ RİFAH

**ANALİTİK HESABAT**

**Müəllif:**
Humay Axundzadə

Bakı - 2020

# TƏŞƏKKÜRLƏR

Tədqiqat sorğusunun hazırlanması və həyata keçirilməsinə dair təkliflərinə görə Sosial-iqtisadi təhlil departamentinin rəhbəri **Seymur Əliyevə**, sorğu metodologiyasının həyata keçirilməsinə görə İctimai rəyin öyrənilməsi departamentinin rəhbəri **Ayşəm Balayevaya**, tədqiqatın müxtəlif mərhələlərində tövsiyələrinə görə Sosial-iqtisadi təhlil departamentinin aparıcı məsləhətçisi **Elnur Çıraqova**, sorğu suallarının adaptasiyası, sorğunun əhatə etdiyi mövzuların genişləndirilməsinə görə İctimai rəyin öyrənilməsi departamentinin baş məsləhətçisi **İnqilab Şahbazova**, statistik işləmələrə görə İctimai rəyin öyrənilməsi departamentinin aparıcı məsləhətçisi **Zaur Əfəndiyevə,** mətnin redaktəsinə görə Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi **Aqşin Məmmədova** təşəkkürümüzü bildiririk.

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

"Azərbaycan barometri" jurnalı 06 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Nəşriyyat: "Şərq-Qərb"
Çapa imzalanıb:
Nəşrin ölçüsü:
Fiziki çap vərəqi:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

# MÜNDƏRİCAT

GİRİŞ....4

QLOBAL DEMOQRAFİK VƏZİYYƏT VƏ AZƏRBAYCAN....5

AZƏRBAYCANDA YAŞLILARA QAYĞI TƏMİNATININ QANUNVERİCİLİK BAZASI....6

ƏSAS ANLAYIŞLAR....8

METODOLOGİYA....9

DEMOQRAFİK GÖSTƏRİCİLƏR....10

ANALİTİK NƏTİCƏLƏR....11

I Övladlıq borcu ilə bağlı sosial normalar....11

II Ailənin və dövlətin yaşlılara qayğı sahəsində məsuliyyət balansına dair ictimai gözləntilər....13

III Yaşlılıq dövründə arzu olunan qayğı və yaşayış formaları....15

IV Yaşlılara dair siyasət: məsuliyyət bölgüsünə daha bir baxış....17

V İctimai şüurda yaşlılara aid stereotip və təsəvvürlər....21

VI Yaşlılara münasibətdə ayrı-seçkilik halları....25

VII Pensiya yığımları və yaşlılar üçün infrastruktur haqqında ictimai rəy....26

GƏLƏCƏK DƏYİŞİKLİKLƏR: TRENDLƏR VƏ PROQNOZLAR....27

Ailə və dövlətin məsuliyyət balansına dair gənc nəslin gözləntiləri....28

Gənclər yaşlılıq dövrü haqqında: arzuolunan qayğı və yaşayış formaları....29

Yaşlılara görə məsuliyyətin sosial aktorlar arasında bölgüsü....31

Övladlıq borcuna dair normaların dinamikası....34

Yaşlılara dair fikir və stereotiplər: dəyişən və dəyişməyən nədir?....37

Yaşlılara münasibətdə ayrı-seçkilik gənclərin gözü ilə....40

Qayğı ümuminsani dəyər kimi....41

NƏTİCƏ....42

TƏKLİFLƏR....43

ƏLAVƏ (TÜRKİYƏ, RUSİYA, GÜRCÜSTAN VƏ FRANSA TƏCRÜBƏSİ)....45

İSTİNADLAR....48

# GİRİŞ

Dövlət Statistika Komitəsinin 2019-ci il üçün göstəricilərinə görə, yaşı 60-dan yuxarı olan vətəndaşlar əhalinin 11,5%-ni təşkil edir (Azərbaycan Dövlət Statistika Komitəsi, Əhalinin yaş qrupları üzrə xüsusi çəkisi). Beynəlxalq proqnozlar 2050-ci ildə ölkə əhalisinin 25%-ə qədərinin yaşlılardan ibarət olacağını göstərir (Avdeev 2015. 43). Bu o deməkdir ki, Azərbaycanda yaşlı nəslə aid əhali qrupu getdikcə daha da əhəmiyyətli təbəqəyə çevriləcək, onların ictimai həyata təsiri artacaqdır.

Eyni zamanda, əhalinin yaşlanma meyli tədricən səhiyyə və sosial müdafiə xərclərinin artmasına səbəb olacaq və göstərilən məsələlər üzrə ictimai müzakirələrə yol açacaqdır. Bununla əlaqədar yaşlıların vəziyyəti və onların rifahına bilavasitə təsir edən qayğı rejimi, yaşlılara qayğının norma və idealları, yaşlılara dair siyasətin müxtəlif aspektləri, habelə onlara münasibətdə stereotip və ayrı-seçkilik məsələlərini tədqiq etmək xüsusi önəm daşıyır.

Qayğı bizim özünüdərketməmiz, “yaxşı həyat “ və “yaxşı cəmiyyət” haqqında olan təsəvvürlərimiz üçün son dərəcə əhəmiyyətlidir (Thelen 2015: 499). Qayğı vətəndaşların rifahının həyat əhəmiyyətli elementi, sosial müdafiənin tərkib hissəsidir. O, cəmiyyət həyatının mikrosəviyyəsində insanların şəxsiyyətlərarası münasibətləri, makrosəviyyədə isə dövlət-vətəndaş münasibətlərində gerçəkləşir.

Cəmiyyətin hər bir səviyyəsində qayğının reallaşma forması milli-mədəni, iqtisadi və siyasi amillərlə əlaqəli şəkildə baş verir. Vətəndaşın aldığı qayğının keyfiyyəti nəticə etibarilə həyat keyfiyyəti və ədalətli cəmiyyət anlayışları ilə uzlaşdırılır, subyektiv rifah hissi, sosial sabitliyin qavranılması, sosial-siyasi quruluşa münasibətini şərtləndirir. Qayğı bütün insanlara yönəlik münasibət forması olsa da, o, ilk növbədə cəmiyyətin həssas qruplarının həyat rifahı üçün həlledici əhəmiyyət kəsb edir.

**Məqsəd və vəzifələr.** Tədqiqatın əsas məqsədi müasir qayğı konsepsiyalarını nəzərə alaraq, Azərbaycanda yaşlıların rifahının müxtəlif aspektlərinin öyrənilməsidir. Bunun üçün əsas metod kimi sorğu metodu seçilmiş və onun əsasında yaşlıların vəziyyətini yaxın və uzaq perspektivdə şərtləndirən aşağıdakı yeddi istiqamət tədqiq edilmişdir:

*- Övladlıq borcu ilə bağlı sosial normalar;*

*- Ailənin və dövlətin yaşlılara qayğı sahəsində məsuliyyət balansına dair ictimai gözləntilər;*

*- Yaşlılıq dövründə arzu olunan qayğı və yaşayış formaları;*

*- Yaşlılara dair siyasət;*

*- İctimai şüurda yaşlılara aid stereotip və təsəvvürlər;*

*- Yaşlılara münasibətdə ayrı-seçkilik halları;*

*- Pensiya yığımları və yaşlılar üçün infrastruktur haqqında ictimai rəy.*

Tədqiqatın əlavə məqsədi yuxarıda göstərilən məsələlərlə əlaqəli indiki vəziyyətlə yanaşı, həm də dəyişiklik meyillərini üzə çıxarmaq və proqnozlaşdırmaqdır. Hesabatda həmçinin Azərbaycanda yaşlıların rifahına təsir göstərən qanunvericilik bazası təhlil edilir, bu sahədə müxtəlif ölkələrin təcrübəsi və həyata keçirdiyi proqram və layihələrə dair məlumat verilir.

## QLOBAL DEMOQRAFİK VƏZİYYƏT VƏ AZƏRBAYCAN

Hal-hazırda əhalinin yaşlanması qlobal və irimiqyaslı demoqrafik prosesdir. Dünya əhalisi qocalır və hər bir dünya ölkəsində yaşlı əhalinin sayı və onların digər yaş qruplarına nisbətdə çəkisi artır (World Population Aging 2017:1). Bu əmək və maliyyə bazarı, mənzil şəraiti, nəqliyyat və sosial müdafiə kimi əmtəə və xidmətlərə tələb, habelə ailə strukturu və nəsillərarası əlaqələr də daxil olmaqla cəmiyyətin demək olar ki, bütün sahələrinə təsiri nəzərdə tutur (World Population Aging 2017-Highlights:2). Əhalinin yaşlanması ilə əlaqədar iqtisadi və sosial dəyişikliklərə hazırlıq Birləşmiş Millətlər Təşkilatının "Dayanıqlı İnkişaf Proqramı - 2030"-da qeyd olunan hədəflərə nail olmaq istiqaməti daxil olmaqla, inkişafda irəliləyişi təmin etmək baxımından əhəmiyyətlidir.

Dünyada yaşı 60-dan yuxarı olanların sayı 1980-ci ildən 2017-ci ilə qədər iki dəfə artmış və 962 milyon olmuşdur. 2050-ci ildə bu rəqəm iki dəfədən də çox artacaq və 2,1 milyarda çatacaqdır. Yaşı 80-dən yuxarı olanlar isə ümumilikdə yaşlı əhaliyə nisbətdə daha böyük sürətlə artır. 2017-2050-ci illər ərzində onların sayının üç dəfə artıb 137 milyondan 425 milyona çatacağı gözlənilir (World Population Aging 2017:2). Əgər 2017-ci ildə dünyadakı əhalinin hər səkkiz nəfərindən birinin yaşı 60 və ondan yuxarı idisə, 2030-cu ildə hər altı nəfərdən biri, XXI əsrin ortalarında isə hər beşindən biri bu yaşda olacaqdır (Yenə orada: 3). Yaşlanma tendensiyası daha çox şəhər əhalisinə xasdır, yəni dünya üzrə şəhər əhalisinin yaşlanması daha sürətlə baş verir.

Əhalinin yaşlanması orta ömür uzunluğunun artması ilə nəsilartımının azalmasının qarşılıqlı təsirinin nəticəsidir (What UNECE does for you:1). Dünyada uşaq ölümünün azaldılmasında irəliləyiş, təhsilin əlçatanlığı və iş imkanlarının yaxşılaşdırılması gender bərabərliyində irəliləyişlər, reproduktiv sağlamlığın təşviqi və ailə planlanmasının əlçatanlığı, nəsilvermə əmsalının azalması, bundan əlavə, sağlamlıq və tibb texnologiyalarının inkişafı, yaşayış şəraitinin yaxşılaşdırılması, həmçinin insanların daha uzun müddət, çox zaman da yaşlılıq dövründə əvvəlki yaş dövrlərindən daha sağlam yaşaması deməkdir (World Population Aging 2017:4). Bu amillər birlikdə dünya üzrə uşaq sayının tədricən azalması, yaşlıların isə sayca artmasına gətirib çıxarmışdır. Bütün bunları nəzərə alaraq, beynəxalq təşkilatlar dünya əhalisinin yaşlanması ilə əlaqədar bütün dünya ölkələrinin gec-tez qarşılaşdığı fəsadların qarşısını almaq məqsədilə son otuz il ərzində bir sıra tədbirlər həyata keçirirlər.

Onlardan biri BMT-nin inkişaf proqramı çərçivəsində 2002-ci ildə Madriddə keçirilmiş ahıllar üzrə II Ümumdünya Məclisidir. Onun nəticəsində qocalma problemlərinə dair beynəlxalq fəaliyyət planı qəbul olunmuşdur. Beynəlxalq Madrid planının əsasını üç prioritet istiqamət təşkil edir. Bura yaşlı insanların inkişafda iştirakı (cəmiyyətin həyatında fəal iştirak, yaşlıların sosial, iqtisadi və siyasi töhfəsinin tanınması, yaşlıların müxtəlif səviyyələrdə qərar qəbulunda iştirakçılığı, əmək fəaliyyəti, işədüzəlmə imkanları, bilik, təhsil və işədüzəlmənin əlçatanlığı, müxtəlif nəsillərin nümayəndələri arasında həmrəylik və s.), yaşlıların sağlamlığının və rifahının təmin olunması və səmərəli şəraitin yaradılması kimi geniş və əhatəli məsələlər aiddir (Political Declaration and Madrid Interntional Plan of Action on Aging).

Bu fəaliyyət planının Azərbaycanda ratifikasiyası çərçivəsində 2006-cı il aprel ayının 17-də ölkə başçısı tərəfindən “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə sərəncam imzalanmışdır. Proqramın tədbirlər planına ahıl vətəndaşların sosial müdafiə sahəsində hüquqlarının təmin edilməsi, yaşlı nəslin sağlamlığının qorunması, ahıl vətəndaşların ictimaiyyətə inteqrasiyasının inkişafı sahəsində tədbirlər, ahıl vətəndaşların sosial müdafiəsinin elmi əsaslarının möhkəmləndirilməsi kimi istiqamətlər daxildir (Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı).

Göründüyü kimi, Azərbaycanda əhalinin tədricən yaşlanma meyli qlobal demoqrafik prosesin tərkib hissəsidir. Müqayisə üçün qeyd edə bilərik ki, 2050-ci ildə Azərbaycanda əhalinin 25%-ə qədərinin yaşının 60-dan yuxarı olacağı proqnozlaşdırılırsa, Yunanıstan, İtaliya,

İspaniya, Portuqaliya, habelə Yaponiya, Koreya Respublikası və Sinqapur üçün bu göstərici 40%-i keçir (World Population Aging 2017:106-108). Bundan əlavə, Azərbaycanda son onilliklərin demoqrafik tendensiyasının təhlili baş verən dəyişikliklərin əmək qabiliyyətli əhalinin sayının yüksək olmasını şərtləndirdiyini aşkara çıxarmışdır (Вердиева 2019: 67). Buna "demoqrafik dividend" və ya "demoqrafik pəncərə" deyilir.

Lakin 2010-cu illərin ortalarından etibarən bu dövrün bitməsi və Azərbaycanda əhalinin yaşlanmasının əmək qabiliyyətli əhalinin üzərinə düşən demoqrafik yükün davğavari artımı ilə müşayət olunması qeyd olunur (Гезалова, Эфендиев: 28).

## AZƏRBAYCANDA YAŞLILARA QAYĞI TƏMİNATININ QANUNVERİCİLİK BAZASI

Azərbaycanda yaşlı vətəndaşların rifahının təmin olunmasında mövcud qanunvericilik bazası müstəsna rol oynayır. Bu sahədə müvafiq qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasından, Ailə Məcəlləsindən, Əmək Məcəlləsindən, "Sosial xidmət haqqında" Qanundan, "Əmək pensiyaları haqqında" Qanundan və "Sosial müavinətlər haqqında" Qanundan ibarətdir.

**Azərbaycan Respublikasının Konstitusiyasında** göstərilir ki, "valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar (Maddə 34.5 Nikah hüququ).

**Azərbaycan Respublikasının Ailə Məcəlləsinin** 82, 83 və 92-ci maddələri isə övladlar, nəvələr və ögey övladların əmək qabiliyyəti olmayan və yardıma ehtiyacı olan yaşlı valideyn və nənə-babalara görə məsuliyyətini nəzərdə tutur. Bu maddələr Azərbaycan ailəsinin ideal modelində qayğı münasibətlərinin necə önəmli yer tutmasını göstərir.

Hətta ailənin gənc üzvlərinin öz məsuliyyətinə laqeydliyi zamanı onlardan məhkəmə qaydasında aliment almaq tələbini nəzərdə tutan maddələr də mövcuddur. Məsələn, Ailə Məcəlləsinin 90-cı maddəsinə görə, nəvələrin nənə və babaları saxlamaq vəzifəsi vardır: "Əmək qabiliyyəti olmayan və yardıma ehtiyacı olan baba və nənə saxlanmaq üçün yetkinlik yaşına çatan övladlarından və ya ərindən (arvadından) maddi yardım ala bilmədikdə, zəruri vəsaitə malik nəvələrdən məhkəmə qaydasında aliment verilməsini tələb etmək hüququna malikdirlər".

Eyni hüquqlar faktiki qəyyumlara da şamil edilir (Maddə 91). Göstərilən qanunun maddələri *Azərbaycan cəmiyyətində ailə qayğısı idealları və ailə qayğısının yüksək normativliyi ilə uzlaşır, ailədə nəsillərarası mübadiləni, gənc nəslin yaşlı nəslin rifahı üçün cavabdeh olmasını nəzərdə tutur.*

Bununla bərabər, cəmiyyətimizə xas qayğı ideallarına görə övladlar və nəvələrin qayğısı yalnız maddi yardım və dəstəklə məhdudlaşmır, onlar yaşlı ailə üzvlərinə birbaşa nəvaziş, qayğı göstərməli, xəstə və köməksiz vaxtlarda onları tənha qoymamalıdırlar. Bu baxımdan belə bir sual yaranır: əmək fəaliyyətinə cəlb olunmuş şəxsin bilavasitə qayğı təminatçısı olması üçün nə kimi imkanları vardır?

**Əmək Məcəlləsinin** 130-cu maddəsinə əsasən işçinin xahişi ilə ailənin xəstə üzvünə qulluq edən qohumlardan birinə səhiyyə müəssisəsinin rəyi ilə 14 təqvim gününədək ödənişsiz məzuniyyət verilə bilər (Əmək Məcəlləsi, Maddə 130).

Ailə Məcəlləsində nəsillərarası qayğı ideallarının, yetkin övladlar və nəvələrin yaşlı ailə üzvləri qarşısında məsuliyyətinin dəstəklənməsi ilə bərabər, Əmək Məcəlləsində nəzərdə tutulan kifayət qədər məhdud imkanlar ailə qayğısı borcunun bir sıra hallarda reallaşmasının çətinliyi qənaətinə gəlməyə imkan verir.

Yaşlılara dövlət qayğısının böyük bir hissəsi "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu qanun qayğı rejiminin mühüm sosial aktorlarından biri kimi dövlətin öz üzərinə götürdüyü mühüm vəzifələri, bununla da vətəndaşlara verdiyi imkanları əks etdirir.

30 dekabr 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən imzalanan "Sosial xidmət haqqında" Qanun "çətin həyat şəraitində yaşayan şəxslərə sosial xidmət göstərilməsi sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsasları-

Hazırda qayğı təminatçılarının hüquqlarını və qarşılaşdıqları çətinliklərin tanınmasını nəzərdə tutan ayrıca qanunlar bu və ya digər formada müxtəlif ölkələrdə mövcuddur. Böyük Britaniyada “Qayğı Aktı” (Care Act 2014)[1], Avstraliyada “Qayğı təminatçılarının tanınması aktı” (Carer Recognition Bill 2010)[2], habelə ABŞ-ın bir sıra ştatlarında Qayğı Aktı (CARE - Caregiver Advise, Record, Enable Act)[3] qəbul olunmuşdur. Bu qanunların ümumi cəhəti qayğı təminatçısı olan vətəndaşların tələbat və çətinliklərinin icma, yerli icra orqanları tərəfindən tanınması, onların özlərinin fiziki, psixi rifahının qorunması üçün dəstək alması, ev şəraitində lazım olan tibbi prosedurların öyrədilməsi və ümumilikdə, ailə üzvünə qayğı göstərən vətəndaşların cəmiyyətə verdiyi töhfənin dərk olunması məqsədini daşımasıdır.

[1] *http://www.legislation.gov.uk/ukpga/2014/23/contents/enacted*

[2] *https://www.legislation.gov.au/Details/C2010A00123*

[3] *https://justcareusa.org/care-act-assists-family-caregivers/*

nı müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir” ("Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu, 2011). Burada əsas meyar müəyyən yaş limiti deyil, vətəndaşın çətin vəziyyətdə olmasıdır. Qanunun 7-ci maddəsində çətin həyat şəraitində olan bir sıra kateqoriyalar, habelə onlar arasında ahıllar (Maddə 7.1.4) göstərilir. Bundan əlavə, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda yaşa görə müavinət növü (Maddə 4.0.1.2.) vardır ki, əmək qabiliyyəti olmayan şəxsin əmək pensiyası hüququ olmadıqda və işləmədikdə nəzərdə tutulur (Maddə 7.0.2).

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, "Sosial xidmət haqqında" Qanuna əsasən, hazırda Nazirlik tərəfindən 10 minədək tənha ahıl və əlil şəxs evlərində sosial-məişət xidməti ilə təmin edilir. Onlardan 7700-ü ahıl şəxslərdir.

Sosial-məişət xidməti kimi onlara sosial işçilər tərəfindən ev təsərrüfatında təmizlik işlərinin aparılmasında, yemək hazırlanmasında, zəruri ərzaq, sənaye və məişət mallarının, müvafiq hallarda tibbi və psixoloji yardımın, hüquqi məsləhətlərin alınmasında və s. işlərdə köməklik göstərilir (Ahılların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir; http://sosial.gov.az/post/2652).

Yaşlıların rifahına təsir göstərən digər mühüm qanun 24 noyabr 2011-ci ildə qəbul olunmuş "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunudur. Qəbul olunduğu dövrdən bəri qanunvericilikdə bir sıra dəyişikliklər edilmişdir, o cümlədən əmək pensiyasının minimum məbləği 1 mart 2019-cu il tarixindən 160 manat məbləğində müəyyən edilmiş, oktyabrın 1-dən etibarən isə 160 manatdan 200 manata çatdırılmışdır. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 30 noyabr 2018, 12 iyul 2019-cu il tarixli, “Əmək pensiyalarının indeksləşdirilməsi haqqında” 6 fevral 2020-ci il tarixli sərəncamlardan sonra isə bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək 16,6 faiz artırılıb, orta aylıq pensiya məbləği 262 manatdan 300 manatadək yüksəlib (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 06.02.2020). Sığorta olunanların qanunvericiliklə onlara təyin olunmuş əmək pensiyası ilə yanaşı, qeyri-dövlət pensiyası hüququ vardır ("Əmək pensiyaları haqqında" Qanun, Maddə 5.2).

Beləliklə, Azərbaycan Respublikasında mövcud qanunvericilik bazası ailə qayğısı rejimini dəstəkləyir və nəsillərarası qayğı normasına əsaslanır. Bununla bərabər, dövlət yaşlıların rifahını təmin edən mühüm aktor kimi ilk növbədə maddi təminat vəzifəsini öz üzərinə götürür.

## ƏSAS ANLAYIŞLAR

*"Qayğı rejimi", "qayğı idealı", "sosial norma", "fəal yaşlanma".*

**Qayğı rejimi** dedikdə, qayğının müxtəlif sosial aktorlar və institutlar arasında bölüşdürülməsinin sabit təkrarlanan məcmusu nəzərdə tutulur (Здравомыслова, Тёмкина 2015:563). Başqa sözlə, qayğı rejimi cəmiyyətdə qayğı məsuliyyətinin müxtəlif sosial institutlar və aktorlar arasında necə bölüşdürülməsindən irəli gələrək qayğı təminatının mövcud formasıdır. Qayğı rejimləri əsasən ailəmərkəzli və ailədənkənar (institusional) növlərə ayrılır (Lewis 1992).

Azərbaycan Respublikasının sosial siyasəti əhalinin bütün həssas qruplarını, o cümlədən yaşlılara qayğı sahəsini də əhatə edir. Bununla bərabər, böyüyə hörmət, ailə dəyərləri, cəmiyyətə xas olan mədəni ideallar ailəmərkəzli qayğı rejiminin daha aparıcı mövqedə olmasını şərtləndirir. Bu baxımdan qayğı rejiminin müasir vəziyyətinin tədqiqi yaşlı vətəndaşların və onlara qayğını təmin edən ailələrin sosial problemlərinin həllinə yönəlmiş siyasi qərarların qəbulunda xüsusi önəm daşıyır.

**Qayğı idealı** - qayğını kimin yerinə yetirməli və nədən ibarət olduğu və qəbul edilmiş normalara əsasən hansı qayğı tipinin "yetərliliyi" haqqında cəmiyyətdə sabit kök salmış təsəvvürlərdir (Hochschild 2003). Burda milli-mədəni ənənələrin nəzərə alınması xüsusi önəm daşıyır. Qayğı ideallarının tədqiqi yaşlıların rifah halını yaxşılaşdırmaq üçün qayğının təşkilinə təsir göstərən siyasi qərarların qəbulunda faydalıdır. Mövcud qayğı idealları sərt və dəyişməz olmayıb, kontekstual xarakter daşıyır. Onlar ailə siyasətinin də təsirinə məruz qalır.

**Sosial norma** dedikdə, bu və ya digər mədəniyyətdə arzuolunan və/və ya uyğun hesab edilən davranış haqqında ümumi qəbul olunmuş gözləntilər nəzərdə tutulur (Scott 2014). Yaşlılara münasibətdə mövcud olan sosial normalar müvafiq münasibət qaydalarını formalaşdırır. Mövcud sosial normaların müəyyənləşdirilməsi həm də yeni siyasi qərarlar və həyat üslublarına olan yolu göstərir. Digər tərəfdən isə norma və vəzifələr keçmişə yönəlmiş olaraq, zamanda fasiləsiz varisliyi və dəyişikliyə müqaviməti göstərir. İnsanların faktiki davranışı bu iki istiqamət arasında bir növ kompromisdir. Bu həm də sosial siyasətə aiddir, hansı ki, bir-birilə münaqişədə olan bu iki aspekti nəzərə almağa çalışır (Lowenstein, Ogg 2003: 126).

**Fəal yaşlanma** - sağlamlığın təminat imkanlarının optimallaşdırılması, cəmiyyətin həyatında iştirak, insanın yaşlandıqca həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədilə müdafiəsi prosesidir. Fəal yaşlanma konsepsiyası layiqli müdafiə, təhlükəsizlik və ehtiyac olduqda qulluq təmin etməklə, insanlara öz fiziki, sosial və psixoloji rifah potensialını bütün həyatı boyu reallaşdırmaq və cəmiyyətin həyatında iştirak etmək imkanı verir (What is healthy Aging?/ World Health Organization).

## METODOLOGİYA

Tədqiqatda yaşlıların rifahı qayğı konsepsiyasını əsas götürməklə öyrənilir. Sorğunun tərtibində ilkin variant kimi beynəlxalq təcrübədə (Almaniya, Böyük Britaniya, Norveç, İspaniya, İsrail) sınaqdan çıxmış irimiqyaslı OASİS (Older Age and Autonomy) layihəsinin bir istiqaməti götürülmüş, Azərbaycan kontekstini nəzərə almaqla bir sıra suallar yenidən tərtib edilmiş, həmçinin əlavə sual bölmələri daxil edilmişdir.

**Respondentlərin seçimi.** Sorğuya əhalinin 18 yaşdan yuxarı hissəsi milli-reprezentativ təsadüfi seçmə vasitəsilə cəlb olunub. Əvvəlcə Bakı və Bakıətrafı ərazilərdən olan 55 respondent arasında pilot sorğu keçirilib, anketdə lazımi düzəlişlər edilib və sonra 1212 nəfər arasında sorğu aparılıb. Statistik xəta əmsalı 2,8%-dir.

Stratifikasiyalı və klaster tipli seçmə toplu çoxpilləli təsadüfi seçmə metodu ilə müəyyənləşdirilib. Seçmənin qurulmasında ardıcıllıqla aşağıdakı prosedurlar həyata keçirilmişdir:

**1.** Doqquz iqtisadi-coğrafi bölgənin hər biri əhatə edilib. Respublika tabeliyində 6 şəhər (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Lənkəran), 35 rayon olmaqla əhalinin sayına proporsional olaraq seçmə aparılıb. Respondentlərin sayı nəzərdə tutulmuş seçmə həcminin minimal 1212 nəfər ümumi sayını nəzərə almaqla müəyyənləşdirilib.

**2.** Hər bir bölgə daxilində əhalinin müxtəlif yaşayış məntəqələri (paytaxt, iri şəhər, kiçik şəhər/şəhər tipli qəsəbə, kənd) üzrə sayına proporsional olaraq respondentlərin sayı müəyyənləşdirilib.

**3.** Klasterlərin ümumi sayı və onların həcmi (klasterlərdəki baş çəkilməli ev təsərrüfatlarının sayı) elə hesablanmışdır ki, müsahibədən mümkün imtina, ev təsərrüfatı üzvünün evdə olmaması və digər müsahibənin baş tutmadığı hallarda ev təsərrüfatlarının kifayət qədər ehtiyatı mümkün olsun. Ümumilikdə planlaşdırılmış 12 ev təsərrüfatı həcmində 101 klaster seçilib.

**4.** Hər ev təsərrüfatında müsahibə üçün ailənin 18 yaşından yuxarı doğum günü sorğu gününə ən yaxın olan bir ailə üzvü seçilib.

**Təlimat.** Sorğudan öncə müsahibəçilər üçün təlimat qaydaları hazırlanıb. Müsahibəçilər üçün təlim keçirilib. Təlim zamanı müsahibəçilər planşet və təlimatlarla təmin olunublar. Sorğu anketindəki hər bir sual üzrə geniş izah verilib.

**Sorğunun aparılma üsulu.** Sorğu şəxsi və anonim müsahibə formasında respondentlərin yaşayış yerində strukturlaşdırılmış anket vasitəsilə aparılıb. Sorğunun həyata keçirilməsində *SurveyToGo* proqramının yükləndiyi planşetlərdən istifadə edilib. Sahə işi 2019-cu ilin noyabr ayının 20-29 tarixlərində həyata keçirilib.

**Məlumatların işlənilməsi.** Sorğuda reallaşdırılmış seçmə toplunun əsas demoqrafik göstəricilərinin rəsmi statistika ilə ziddiyyətlərini aradan qaldırmaq məqsədilə əldə olunmuş məlumatların yaşayış yeri (şəhər/kənd), bölgə, cins və yaş parametrlərinə görə standart çəkmə prosedurundan istifadə olunub. Sorğunun nəticələri, riyazi emal və məlumatların təhlili SPSS proqramı vasitəsilə həyata keçirilib. Göstəricilərin yuvarlaqlaşdırılması səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən cüzi fərqlənə bilər.

Qeyd olunduğu kimi, tədqiqat həm də dəyişiklik meyillərini üzə çıxarmaq və proqnozlaşdırmaq məqsədini daşıyır. Bunun üçün sorğunun ümumi seçməsinin nəticələrinin təhlilindən əlavə, oradan müəyyən meyarlara uyğun gələn (ali təhsilli, yaşı 35-ə qədər olan şəhər sakinləri) respondentlər xüsusi seçmə kimi ayrılaraq, onların cavabları təhlil edilmişdir.

## DEMOQRAFİK GÖSTƏRİCİLƏR



## ANALİTİK NƏTİCƏLƏR

### I Övladlıq borcu ilə bağlı sosial normalar

Azərbaycan cəmiyyətində mövcud olan dəyər və ənənələr yaşlılara ailəmərkəzli (familistik) qayğı rejimini daha aktual edir. Bu model yaşlı vətəndaşların rifahında, ilk növbədə, ailənin gənc nəslinin məsuliyyətini ön plana çəkir. Bu məsuliyyətin reallaşması üçün **övladlıq borcu ilə bağlı sosial normalar** xüsusi önəm daşıyır. Sorğunun birinci bloku məhz bu istiqamətdə olan sualları ehtiva edir. Övladlıq borcu ilə bağlı normaların yaşlıların rifahına təsiri mühümdür. Belə ki, bu normalar yetkin övladların valideynlərinə münasibətdə davranış qaydalarını müəyyənləşdirir, qarşılıqlı gözləntiləri, insanların müxtəlif yaş dövrlərində həyat strategiyalarını şərtləndirir, həmçinin ailədə nəsillərarası münasibətlərə ictimai nəzarəti təmin edir.

Blok üç qrupa bölünmüş doqquz mühakimədən və onlara verilən dörd cavab variantından (respondentin münasibət formasından) ibarətdir.

**1.1. Övladlıq borcu və birgəyaşayış forması.** Yetkin övladların valideynlərinə münasibətdə müvafiq vəzifələri yerinə yetirməsi əhəmiyyətli dərəcədə onların birgəyaşayış formasından asılıdır. Azərbaycan cəmiyyətində övladların valideynlərindən ayrılaraq ayrıca ev təsərrüfatına keçməsi bir sıra amillərlə şərtlənir - övladın nikah statusu, cinsi bu məsələdə xüsusi önəm daşıyır. Ona görə də göstərilən sual blokunun ilkin istinad mənbəyi OASİS tədqiqat layihəsində olsa da, tədqiqatımızın konteksti və milli xüsusiyyətlərimizdən irəli gələn amilləri nəzərə alaraq ora daha dörd mühakimə də əlavə edilmişdir. Beləliklə, blokun təqdim olunan hissəsinə aid mühakimələr aşağıdakılardır:

- Yetkin övladlar ailə vəziyyətindən asılı olmayaraq, yaşlı valideynlərinə yaxın yerdə yaşamalıdırlar ki, lazım olanda onlara kömək etsinlər.

- Yetkin övlad sonbeşikdirsə, onun ailə qurduqdan sonra da yaşlı valideynlərilə birlikdə yaşaması daha düzgündür (oğul övladı üçün).




*Diaqram 1. Övladlıq borcu və birgəyaşayış forması*

- Yetkin övlad tək övladdırsa, onun ailə qurduqdan sonra da yaşlı valideynlərilə birlikdə yaşaması daha düzgündür (oğul övladı üçün).

- Yetkin övlad sonbeşikdirsə, onun ailə qurduqdan sonra da yaşlı valideynlərilə birlikdə yaşaması daha düzgündür (qız övladı üçün).

- Yetkin övlad tək övladdırsa, onun ailə qurduqdan sonra da yaşlı valideynlərilə birlikdə yaşaması daha düzgündür (qız övladı üçün).

Göründüyü kimi, cavablara ***yüksək normativlik*** xasdır (Diaqram 1). Respondentlərin mütləq əksəriyyəti (94,5%) yetkin övladların ailə vəziyyətindən asılı olmayaraq, yaşlı valideynlərə dəstək olmaq üçün onlara yaxın yaşamasının vacib olması fikri ilə razılaşıblar (83,8% tam razıdır, 10,7% isə əsasən razıdır). Başqa sözlə, respondentlər yaşlıların rifahını təmin etmək üçün övladların coğrafi yaxınlıq amilini vacib hesab edirlər.

Növbəti suallar respondentlərin daha düzgün hesab etdiyi yaşayış forması ilə övladın ailə statusu, ailədə neçənci uşaq olmasını və genderin rolunu daha da dəqiqləşdirmək imkanı verir. Bu suallarda “ailə qurduqdan sonra” ifadəsi təkrarlanır. Bunun səbəbi Azərbaycan cəmiyyətində insanın nikah statusunun onun müstəqilləşməsinin, valideynlərin ev təsərrüfatından ayrılmanın başlıca şərti olmasıdır.

Respondentlərin cavabları tədqiqatın ehtimallarını doğrultmuşdur. Belə ki, oğul və qız övladlarının birgəyaşayışına dair normalar kifayət qədər fərqlidir. Respondentlər məhz oğul övladının (əgər o, sonbeşik və ya tək övladdırsa) nikah statusundan asılı olmayaraq, valideynlərlə bir ev təsərrüfatında yaşamasını daha arzuolunan hesab ediblər. 66,6% sonbeşik oğulun ailə qurduqdan sonra birgə yaşamasının daha düzgün olması fikri ilə tam razılaşıb, 15% isə bu fikirlə əsasən razıdır. Oğul övladının tək övlad olduğu təqdirdə birlikdə yaşamasının düzgünlüyü fikri ilə respondentlərin uyğun olaraq, 75,4%-i tam, 13,5%-i isə əsasən razı olublar.

Sonbeşik və tək qız övladlarının ailə qurduqdan sonra valideynlərilə birgə yaşamasının düzgünlüyü fikri ilə razılaşanların sayı əhəmiyyətli dərəcədə azdır. Sonbeşik üçün bu göstərici 22,1% tam razı olanlar, 16,3% əsasən razı olanlardır. Tək qız övladı üçün isə bu göstərici nisbətən daha yüksəkdir - 35,2% tək qız övladının ailə qurduqdan sonra valideynləri ilə birlikdə yaşamasının düzgün olması fikri ilə tam, 20,1%-i isə əsasən razılaşıb. Qız övladına münasibətdə birgəyaşayış tələbinin daha az olmasını Azərbaycan cəmiyyətinin ənənələri ilə izah etmək olar. Lakin digər tərəfdən, yenə də qeyd edə bilərik ki, ümumən sonbeşik və tək uşaq olan həm oğlan, həm də qız övladlarının nəinki coğrafi cəhətdən valideynlərinə yaxın yaşaması, hətta yetkinlik dövründə ümumi ev təsərrüfatı çərçivəsində yaşamasının respondentlərin əksəriyyəti tərəfindən düzgün hesab edilməsi ***cəmiyyətdə yaşlılara ailəmərkəzli qayğı ideallarının kifayət qədər güclü olmasının göstəricisidir.***

**1.2. Övladlıq borcu və nəsillərarası mübadilə.** Yaşlılara ailəmərkəzli qayğı normaları həm də nəsillərarası mübadilə haqqında təsəvvürlərlə də əlaqəlidir. Çünki yaşlılar bu günə qədər valideyn olmuş, övladlarının rifahı üçün çalışmış insanlar kimi nəzərdən keçirilir və övladlıq borcu valideynlərin göstərmiş olduğu diqqət, qayğı və nəvazişin əvəzi kimi nəzərdən keçirilir. Bu blok qrupunda verilən suallar nəsillərarası mübadilənin müxtəlif formalarını (maddiyyat, zaman sərfiyyatı və s.) əhatə edir. Mühakimələr aşağıdakılardır:

- Yetkin övladlar yaşlı valideynlərinə dəstək olmaq üçün özləri istədikləri bəzi şeyləri qurban verməyi bacarmalıdırlar (başqa şəhərə və ya ölkəyə köçmək, asudə vaxtını özünə həsr etmək və s.).

- Yetkin övladlar yaşlı valideynlərinə dəstək olmaq üçün öz uşaqlarına istədikləri bəzi şeyləri qurban verməyə hazır olmalıdırlar (birlikdə daha çox vaxt keçirməkdən, təhsilinə daha çox pul xərcləməkdən, əyləncəyə daha çox vaxt ayırmaqdan və s.).

- Valideynlərin övladları üçün etdiklərinin əvəzini almağa haqqı var (qocalanda diqqət və qayğı istəməyə, maddi təminat gözləməyə və s.).

Bu mövzuda da respondentlərin ***normalara yönümlüyü kifayət qədər yüksəkdir*** (Diaqram 2). Onlar yetkin övladların yaşlı valideynlər qarşısında övladlıq borcunu ödəmək naminə qurbanlar verməyə hazır olmanın vacibliyi ilə razılaşır, insanın həm özü, həm də öz övladları üçün istədiklərinin qurban ola biləcəyi fikrini dəstəkləyirlər. Respondenlərin 78,1%-i insanın özü üçün istədiklərini yaşlı valideynlərinə dəstək olmaq üçün qurban verməyi bacarmalı olması fikri ilə razılaşır (61,5% tam razı, 16,7% əsasən razıdır).

*Diaqram 2.*
*Övladlıq borcu və nəsillərarası mübadilə*




Yaşlı valideynlərə dəstək olmaq məqsədilə insanın öz övladları üçün istədiklərini qurban verməsi ilə yenə də respondentlərin əksəriyyəti (73.9%-i) razılaşıb (50.8% tam razıdır, 23.1% əsasən razıdır)

Növbəti sual "valideyn haqqı" ilə bağlıdır. Bu sual yaşlı valideynlərin öz övladlarından diqqət, qayğı, maddi təminat tələbinin nə dərəcədə məqbul hesab edilməsi ilə bağlıdır. Cavablardan aydın olur ki, yaşlılıq dövrü, doğrudan da, insana müəyyən mənəvi üstünlüyü təmin edən amildir. Yaşlı insanların əvvəllər öz övladları üçün etdiklərinin əvəzini geri almaq haqqı ilə (diqqət və qayğı, maddi təminat kimi) tam razılaşanlar ümumən 80,4%-dir. Bu kifayət qədər yüksək faiz olub, övladlıq borcu ilə bağlı sosial normaların nə qədər möhkəm olmasının göstəricidir.

**1.3. Yaşlılıq dövrü: asılılıq və müstəqillik.** Blokun son mühakiməsini özünəməxsus məzmununa görə ayrıca təhlil etməyi məqsədəuyğun hesab edirik: *Yaşlı insanların yetkin övladlarından asılı olmaları normaldır.* Cavablar belə müəyyənləşmişdir:

Yaşlı insanların övladlarından asılılığının normal olması ilə tam razılaşanlar 56,3%, əsasən razılaşanlar 15,7%, razılaşmayanlar isə ümumən 27,2%-dir. Bu mühakimə üzrə normativlik blokun digər sualları ilə müqayisədə daha aşağıdır (Diaqram 3). Yəni respondentlərin nisbətən daha çox hissəsi yaşlılıq dövrünün asılılıq dövrü olması fikrini dəstəkləsə də, onların təqribən üçdə birinin bu fikirlə razılaşması yaşlılıq dövründə insanın müstəqilliyinin vacibliyi fikrini dəstəkləməsinə işarədir. Bu amil, zənnimizcə, Azərbaycanda fəal yaşlanma ideologiyasının uğurla təşviq olunması üçün imkan yaradan amillərdəndir.

## II Ailənin və dövlətin yaşlılara qayğı sahəsində məsuliyyət balansına dair ictimai gözləntilər

Hər hansı cəmiyyətdə yaşlılara qayğı rejiminin formalaşmasında müxtəlif sosial aktorlardan ailə və dövlətin yeri, onlar arasında məsuliyyət bölgüsü xüsusi əhəmiyyətə malikdir. Bu bölgünün formalaşmasının mədəni və qanunvericilik əsasları vardır. Qanunvericiliklə tənzim olunan məsələlər bir çox hallarda cəmiyyətdə qayğının müxtəlif sosial aktorlar arasında

*Diaqram 3.*
*Asılılıq – müstəqillik*



## Kimi yaşlı hesab etmək olar?

İctimai şüurda yaşlılıq dövrünün müəyyənləşməsi həm rəsmi pensiya yaşından, həm də cəmiyyətə xas mədəni amillərdən qaynaqlanır. Kimin "yaşlı", kiminsə hələ "cavan" hesab olunması zaman-zaman dəyişir. Bu, heç də həmişə obyektiv göstəricilərlə (pasport yaşı, əmək fəaliyyətinin dayandırılması) şərtlənməyib, subyektiv amillərlə əlaqələndirilir. Bu baxımdan, müasir Azərbaycanda kimin yaşlı hesab edilməsi maraq doğurur. Ona görə respondentlərə "Sizcə, kimi yaşlı hesab etmək olar?" sualı verilmişdir.




hansı formada bölünməsinin daha düzgün olmasına dair norma və ideallardan qaynaqlanır.

Blok üç sualdan ibarətdir, onlar yaşlılara qayğının ***maddi təminat, instrumental və şəxsi aspektlərini*** əhatə edir:

- *"Yaşlı insanlara maddi təminat ailənin, yoxsa dövlətin məsuliyyətidir?"* sualı yaşlılara qayğının maliyyə aspektinin iki aparıcı sosial aktor tərəfindən bölüşdürülməsinə münasibəti öyrənir;

- *"Yaşlıların ev təsərrüfatı işlərinə (məsələn, ev təmizliyi, kiçik təmir işləri və s.) yardım ailənin, yoxsa dövlətin məsuliyyətidir?"* sualı yaşlılara qayğının instrumental tərəfinin ailə və dövlət arasında bölgüsünə münasibəti öyrənməyə yönəlmişdir;

- *"Yaşlılara birbaşa qayğının təmin olunması (məsələn, qidalanma, gigiyenik qulluq və s.) ailənin, yoxsa dövlətin məsuliyyətidir?"* sualı qayğının ən şəxsiləşdirilmiş formasının ailə və dövlət arasında bölgüsünə münasibəti öyrənir.

Diaqram 4-də göründüyü kimi, respondentlərin əhəmiyyətli hissəsi ***yaşlılara qayğının instrumental və şəxsi tərəflərinin məsuliyyətini tamamilə ailəyə aid edir.*** Yəni onlar yaşlı insanın evində təmir və təmizlik işlərinin, vaxtaşırı ərzaq almaq kimi işlərin, ən əsası, yaşlıya bilavasitə qulluqla bağlı işlərin daha çox ailə üzvləri tərəfindən yerinə yetirilməsini məqbul hesab edirlər. İnstrumental qayğıya münasibətdə bu göstərici 52,2%, şəxsi qayğı təcrübələrinə münasibətdə isə bu, 43,7%-dir. Bununla bərabər, respondentlərin 30,5%-i instrumental, 39,5%-i isə ***şəxsi qayğının***

***Diaqram 4.***



***ailə və dövlət arasında bölüşdürülməsi fikrini dəstəkləyir.*** Qeyd etmək lazımdır ki, burada dövlət qayğısı dedikdə, həm də ev şəraitində yardımçı rol oynayan sosial işçilərin fəaliyyəti nəzərdə tutulur. Bu, sorğu zamanı respondentlərə çatdırılmışdır. Diaqramda diqqət cəlb edən əsas məsələ isə qayğının maddi təminatla bağlı hissəsinin daha çox ailə deyil, dövlətin məsuliyyəti ilə əlaqələndirilməsidir. Yaşlıların maddi cəhətdən təminatının tamamilə ailə məsuliyyəti olmasını düşünənlər 10,8%-dirsə, bunu tamamilə dövlətin məsuliyyəti kimi görənlər təqribən iki dəfə çox – 21,8%-dir. Həmçinin, məhz bu göstərici üzrə respondentlərin 57%-i məsuliyyətin ailə və dövlət arasında bölüşdürülməsini məqbul hesab edir. Bu göstərici belə qənaətə gəlməyə imkan verir ki, respondentlərin yaşlılara dövlət qayğısına dair gözləntiləri, ilk növbədə, məhz maddi təminatla (pensiyalar, müavinətlər) əlaqələndirirlər. Başqa sözlə, ***ailə bir sosial institut olaraq ümumən yaşlılara qayğı vəzifələrini öz üzərindən atmır, lakin onların həyata keçirilməsində dövlətin dəstəyinə (xüsusilə maddi təminat məsələlərində) güvənir.***

## III Yaşlılıq dövründə arzu olunan qayğı və yaşayış formaları

İnsanın yaşlılıq dövrünü kiminlə və necə yaşayacağına aid arzuları onun əvvəlki yaş dövrlərində bir çox həyati seçimlərini şərtləndirir. Normal və arzu olunan qocalma ilə bağlı təsəvvürlər ümumilikdə ailə institutunun, qohumlar arasında münasibətlərin dinamikasına təsir edir, subyektiv məmnunluq hissini şərtləndirir.

Bu həm də respondentlərin qayğı təminatçısı kimi etimad göstərdiyi aktorlara münasibəti daha da dəqiqləşdirmək imkanı yaradır. *“Qocalanda qayğıya ehtiyacınız olarsa, hansı yaşayış formasını arzulayardınız?”* sualı üç alt bölmədən və beş cavab variantından ibarətdir. Burada insanın öz övladı, digər qohumları ilə birgə və qocalar evində yaşamağı istəyib-istəməməsi öyrənilir.

Bu suala verilən cavablar həm ehtimal olunan, həm də bir qədər gözlənilməz nəticələri göstərir (Diaqram 5). Respondentlərin mütləq əksəriyyəti birmənalı olaraq **qayğının ailə modelinə** (öz övladımla yaşamağı) üstünlük verir (92,3%). Cəmi 7,5% isə bunun əleyhinədir. ***Bu, nəinki ailə qayğısı modelinin zaman getdikcə də hifz olunacağını, həm də övladyönümlü Azərbaycan ailəsi modelinin saxlanılacağını proqnozlaşdırmağa imkan verir.***

Qocalar evində yaşamaq ehtimalı ilə heç razı olmayanların mütləq çoxluq təşkil etməsi də gözlənilən haldır və institusional qayğıya neqativ yanaşmanın göstəricisidir. Maraqlı məqam həm də respondentlərin digər qohumları ilə birgə yaşamaq perspektivinə qocalar evində yaşamaq perspektivi qədər neqativ yanaşmasıdır. Belə ki, qocalar evində yaşamaqla heç




***Diaqram 5.*** *Qayğı formaları və onların arzuolunanlığı*

razı olmayanlar 85,2%-dirsə, digər qohumlarla yaşamaq istəməyənlər 84,7%-dir. Fikrimizcə, bu göstərici heç də digər qohumlarla münasibətlərin neqativ olması kimi anlaşılmamalıdır. Lakin bu, Azərbaycan ailəsinin sosioloji təhlilinə, onun strukturuna, qohumlar arasında mənəvi məsuliyyətə aid yeni tədqiqatların aparılmasının zəruriliyini ortaya qoyur, ailələrin faktiki nuklearlaşma səviyyəsinin yüksək olması, böyük ailə modelinin arxa plana keçməsi ehtimalını irəli sürməyə imkan verir. Bu proses isə öz növbəsində modernləşmənin əlamətləri kimi nəzərdən keçirilə bilər.

Diqqət yetirilməli məqam həm də digər qohumlarla yaşamaq ehtimalı ilə heç razı olmama cavabının yüksək faiz göstəriciləri almasının yalnız şəhər deyil, həm də kənd yerlərinə də xas olmasıdır. Doğrudur, bu göstəricilər arasında fərq mövcuddur. Şəhər yerində respondentlərin 88,7%-i, kənd yerində isə 79,7%-i qocalanda digər qohumlarla birgə yaşamaq perspektivinə neqativ münasibət bildirib. Bu, kənd yerlərində böyük ailə resurslarının saxlanılması stereotiplərini şübhə altına alır. Belə güman etmək olar ki, ***yaşayış yerinin tipindən asılı olmayaraq, Azərbaycan ailəsində qayğı vəzifələrinin yerinə yetirilməsi, birbaşa asılılıq yalnız nuklear ailə strukturu çərçivəsində legitim və arzuolunandır.***

Təhlil olunan blokun digər sualı *“Qocalanda ev işləri ilə əlaqəli köməyə ehtiyacınız olarsa, bu köməyi kimdən almaq istərdiniz?* Əhəmiyyətlilik dərəcəsinə görə sıralayın” kimi təqdim olunub. Bu instrumental qayğının hansı aktorlar tərəfindən həyata keçirilməsinin daha arzuolunan olmasını aydınlaşdırmaq imkanı verir. Başqa sözlə, cavablar respondentlərin ən yaxşı qayğı təminatçısı kimi etimad göstərdikləri sosial aktorların ardıcıllığını müəyyənləşdirməyə imkan verir. Burada ən çox etimad göstərilən qayğı təminatçısı kimi insanın öz övladı (96,6%), daha sonra isə dövlət (73,4%) hesab olunur. Bu suala cavabların üzə çıxardığı maraqlı məqam **respondentlərin dövlətə inamının digər qohum və qonşulara olan inamdan daha çox olmasıdır.** Belə ki, digər qohumlar etimad üzrə üçüncü (53,9%), qonşular isə dördüncüdür (49,5%). Bu sual bir daha belə bir qənaətə gəlməyə imkan verir ki, respondentlərin təsəvvürlərinə görə, yaşlılara *ideal qayğı rejimində qayğı ailədə həyata keçirilir, lakin dövlət də bu prosesdə sosial işçilər vasitəsilə iştirak edir.*

## IV Yaşlılara dair siyasət: məsuliyyət bölgüsünə daha bir baxış

Yaşlılara qayğının təmin olunmasında müxtəlif sosial aktorların iştirakçılığı yalnız mövcud ənənə və qanunverici baza deyil, həm də vətəndaşların konkret qayğı təminatçısına nə dərəcədə inanması, onun təqdim edə biləcəyi xidmətlərin qayğı normaları və idealları ilə uyğunluq səviyyəsindən asılıdır. Respondentlərin qayğı təminatçısı kimi görmək istədikləri sosial aktorları daha dəqiq və hərtərəfli müəyyənləşdirmək üçün onlara belə bir sual ünvanlanıb: **"Gələcəkdə yaşlıların sayı daha çox olacaq. Fikrinizcə, onların tələbatlarını ödəmək üçün əsas məsuliyyət kimin üzərindədir?"**




***Diaqram 6.*** *Yaşlılara qayğının sosial aktorlar arasında bölgüsünə dair gözləntilər*

**Bir daha ailə və dövlət.** Altıncı diaqramın göstəriciləri yaşlılıq dövründə arzuolunan, ideal qayğı rejimi haqqında bir sıra məsələlərə aydınlıq gətirir. Göründüyü kimi, gözləntilərin böyük hissəsi daha çox ailə institutu və dövlətlə əlaqədardır. Respondentlərin 68,8%-i yaşlıların tələbatlarını ödəmək üçün əsas məsuliyyətin ailənin, 62,1%-i isə dövlətin (sosial işçilərin) üzərində olması fikri ilə tam razıdır. Bu, bir tərəfdən ailə qayğısı ənənəsinin davam etməsini, digər tərəfdən dövlət qayğısına münasibətdə yüksək gözləntiləri göstərir. Yəni, respondentlərin fikrincə, yaşlılara ən ideal qayğı forması ailə və dövlət arasında bölüşdürülən qayğıdır. Qeyd etmək vacibdir ki, burada ailə dedikdə, məhz bir ev təsərrüfatında birləşmiş nüvə ailə strukturu nəzərdə tutulur. Belə ki, "digər qohumların" yaşlı insanın qayğısına qalmaq məsuliyyəti ilə heç razılaşmayanların sayı da kifayət qədər yüksək - 67,1%-dir. Dostlar və qonşulardan qayğı gözləntisi isə maksimal neqativ seçim faizi - 74,6% qazanmışdır. Bu göstəricilər onu ehtimal etməyə imkan verir ki, ***gələcəkdə yaşlılara qayğının təmin olunmasında icma resurslarının potensialının reallaşmama təhlükəsi mövcuddur. Bu resursların səfərbər olunması məqsədyönlü təbliğat-təşviqat proqramları, davamlı layihələrin həyata keçirilməsini tələb edir.*** İcma resurslarından səmərəli istifadə həm bu sahədə məsuliyyətin sosial aktorlar arasında daha effektiv bölüşdürülməsi, həm də cəmiyyətdə tənhalıq, anomiya kimi sosial və sosial-psixoloji problemlərin azaldılmasının şərtidir.

**Özəl sektor.** Növbəti vacib məsələ özəl sektorun (özəl qayğı mərkəzlərinin, qayğı üzrə ixtisaslaşan agentliklərin) məsuliyyəti ilə bağlıdır. Özəl sektorun yaşlılara qayğı xidmətlərində iştirakçılığı ilə ümumən razılaşanlar və razılaşmayanların faiz göstəriciləri təqribən bir-birinə yaxın rəqəmlərdir. Razılaşanlar 46,6% (tam razılaşanlar – 22,4%, əsasən razılaşanlar – 24,1% olmaqla), razılaşmayanlar isə - 49,6% dir (heç razı olmayanlar - 46,4%, əsasən razı olmayanlar 3,2%-dir). Belə paylanma yaşlılara qayğı sahəsində ***özəl sektor tərəfindən təqdim olunan xidmətlərin inkişafı üçün əlverişli şəraitin yaradılması, sahibkarların belə fəaliyyətə cəlb olunması üçün stimullaşdırılmasının məqsədəuyğunluğu nəticəsinə gəlməyə imkan verir.***

Məlumdur ki, son illər xüsusilə şəhər mühitində yaşlılara ailə şəraitində təşkil olunan ödənişli qayğı xidmətləri yayılmaqdadır. Bu proses ailələrin nuklearlaşması, ailədə övlad sayının, yəni potensial qayğı təminatçılarının sayının azalması, əsas qayğı təminatçıları olan qadınların geniş miqyasda əmək fəaliyyətinə qoşulması ilə şərtlənmişdir. Ödənişli qayğı xidmətlərinin yayılması ailə qayğısı sahəsinə muzdlu münasibətlərin daxil olması deməkdir və bir sıra etik məsələləri ortaya qoyur. Lakin yaranan problemlərin böyük hissəsi muzdlu qayğı münasibətlərinin kölgə iqtisadiyyatının hissəsi olması, əmək münasibətlərinin formallaşdırılmasının hüquqi əsaslarının tam işlənilməməsi və müvafiq sahədə fəaliyyət göstərən şəxslərin işçi, ailələrin isə işəgötürənlər kimi hüquq və vəzifələrinin qeyri-müəyyənliyi ilə əlaqədardır. Bu problemlərin aradan qaldırılması isə qayğı xidmətlərinin təşkilinə özəl sektorun cəlb olunmasının stimullaşdırılması, habelə fərdi qaydada muzdlu qayğı xidmətləri göstərən şəxslərin fəaliyyətinin əlverişli vergi şərtləri ilə rəsmiləşdirilməsi, muzdlu qayğı münasibətlərinin sənədləşdirilmə prosedurlarının təkmilləşdirilməsindən asılıdır.

**Xeyriyyə cəmiyyətləri və könüllü təşkilatları.** Ölkəmizdə hələ kiçik miqyasda olan xeyriyyə cəmiyyətlərindən və daha geniş vüsət almaqda olan könüllü təşkilatlarından müsbət gözləntilər, uyğun olaraq, 63,5% və 56%-dir. Bu da yaşlılara qayğı məsuliyyətinin sosial aktorlar arasında daha balanslaşdırılmış bölgüsü üçün müvafiq sahələrin inkişafının vacibliyini göstərir. ***Dövlət başçısı cənab İlham Əliyev tərəfindən 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ilə bağlı sərəncamı nəzərə alaraq, yaşlılara qayğı istiqamətində könüllü hərəkatına genişləndirilmiş şəkildə start verilməsi məqsədəuyğun hesab olunur.*** Bu könüllülər ən azından instumental qayğı (evdə kiçik təmir işləri, bazarlıq etmək və s.) işlərinə qoşula bilər. Onların öz icmaları çərçivəsində ərazi bölgüsü üzrə səfərbər olunması dolayı yolla həm də icma resurslarının səmərəli istiqamətdə səfərbər olunması deməkdir. Könüllü fəaliyyətinə yaş məhdudiyyəti qoyulmamalı, bu sahəyə həm də yaşlı vətəndaşların da cəlb olunması təşviq olunmalıdır. Bu məsələdə DOST agentliyinin təcrübəsi hər baxımdan önəmli hesab oluna bilər. Onların fiziki imkanları gənclərə nisbətən

bir qədər məhdud olsa da, oxşar həyat təcrübəsi, ünsiyyət vərdişləri ünsiyyət çatışmazlığı yaşayan, azhərəkətli, tənhalıqdan əziyyət çəkən daha yaşlı insanlar üçün əvəzsiz resursdur. Bu, öz növbəsində, həm də ***fəal yaşlanma ideologiyasının da*** təşviqi deməkdir.

Respondentlərin yarıdan çoxunun (63,5%) xeyriyyə cəmiyyətlərinin yaşlılara görə məsuliyyət daşıması fikrinə müsbət yanaşması da, bu sahədə innovativ fəaliyyətlərin həyata keçirilməsi və görülən işlərin genişləndirilməsinin səmərəli ola biləcəyi nəticəsinə gətirir. Burada da müvafiq təşviqedici proqramlar, müxtəlif qurum, təşkilat və şirkətlərin xeyriyyəçilik fəaliyyətinə həvəsləndirilməsi yaşlı nəslin, xüsusilə sosial-iqtisadi vəziyyəti bir qədər məhdud və qayğıya ehtiyacı olan vətəndaşların rifah halının yaxşılaşdırılmasını şərtləndirər.

Təhlil etdiyimiz sual blokunda respondentlərə daha beş sual təqdim olunmuşdur. Bu suallar bir neçə mühüm sosial aktorun məsuliyyət balansı və innovativ qayğı xidmətlərini əhatə edir.

*“Yaşlılara qayğı getdikcə daha çox özəl sektor tərəfindən sosial məsuliyyətlilik çərçivəsində maliyyələşdirilməlidir”* fikri ilə respondentlərin 52,7%-i tam, 21,1%-i əsasən razıdır (Diaqram 7).




***Diaqram 7.*** *“Yaşlılara qayğı getdikcə daha çox özəl sektor tərəfindən sosial məsuliyyətlilik çərçivəsində maliyyələşdirilməlidir”*

Ümumilikdə 73,8% respondentin özəl sektorun yaşlılara qayğı sahəsində məsuliyyət daşıması ilə razılaşması bir daha onu təsdiq edir ki, qanunvericiliyin təkmilləşdirilməsi, sosial məsuliyyətlilik layihələrini tətbiq edən özəl şirkətlərə imtiyazların tətbiqi, habelə əhali arasında özəl sektora inamın təşviq olunması vasiləsilə Azərbaycanda yaşlılara qayğının təşkili üzrə müvafiq sahənin inkişafına nail olmaq mümkündür.

Blokun növbəti sualı yaşlılıq dövründə maddi təminata görə insanın özünün məsuliyyət daşıması fikrinə respondentlərin yanaşmasını öyrənməyə yönəlmişdir. Sualın əhəmiyyəti ondan irəli gəlir ki, yaşlılıq dövrünü tam olaraq asılılıq dövrü kimi nəzərdən keçirmək nəticədə yaşlı insanların stiqmatizasiyasına, onların təcrübə və resurslarının əhəmiyyətsizləşdirilməsinə gətirib çıxarır. Maddi təminatın hətta qismən belə yaşlı insanın özü tərəfindən ödənilməsi onun həyat seçimlərində müəyyən qədər sərbəstliyinə, nəhayətdə, daha özünəinamlı olmasına, cəmiyyətdə daha fəal mövqe tutmasına səbəb olur. Bu baxımdan respondentlərin yaşlı insanların heç olmasa, qismən maddi cəhətdən müstəqil olmasına münasibəti maraq doğurur. *“Yaşlı insanlar özləri müəyyən qədər öz xərclərini çəkməyə hazır olmalıdırlar”* fikri ilə respondentlərin ümumən 81,8%-i razıdır (Diaqram 8).




***Diaqram 8.*** *“Yaşlı insanlar özləri müəyyən qədər öz xərclərini çəkməyə hazır olmalıdırlar”*

Suala verilən cavab respondentlərin yaşlılıq dövrünün bütün məhdudiyyətlərinə baxmayaraq, insanı ən azı maddi cəhətdən qismən müstəqil görmək istəyini ifadə edir. Belə yanaşma cəmiyyətdə ***fəal yaşlanma ideologiyasının təşviqi üçün münbit şəraitin olması haqqında fikir yürütməyə imkan verir.*** Bu baxımdan, ötən ildən etibarən ölkəmizdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT-nin Əhali Fondu tərəfindən reallaşdırılan *“Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi”* adlı birgə layihəyə start verilməsini müsbət nəticələrə gətirib çıxara biləcək proses kimi dəyərləndirə bilərik.

Növbəti iki sual yaşlılara qayğı məsələlərində ailə və dövlət məsuliyyətinə respondentlərin mövqeyini yekun olaraq təsbit etməyə yönəlmişdir.




***Diaqram 9.*** *“Yaşlılara qulluqla bağlı xərclərin böyük hissəsi (yeməyi, müalicəsi, dərmanları və s.) yaşlı insanların öz övladları tərəfindən ödənilməlidir”*

**Diaqram 10.** *"Yaşlılara qulluqla bağlı xərclərin böyük hissəsi dövlət tərəfindən ödənilməlidir"*




Xərclərin böyük hissəsinin yaşlı insanın öz övladları tərəfindən ödənilməsi fikri ilə ümumilikdə 84,5 % respondentin razı olması bir daha ailə qayğısı modelinin, ailədə nəsillərarası mübadilənin, yetkin övladların yaşlı valideynlərə münasibətdə məsuliyyətinin yüksək normativliyə malik amil kimi qəbul edilməsinin göstəricisidir (Diaqram 9).

Yaşlılara qulluqla bağlı xərclərin böyük hissəsinin ödənilməsində dövlətin məsuliyyət daşıması fikri ilə respondentlərin 92,9%-i ümumilikdə (istər tam, istərsə də əsasən) razılaşır (Diaqram 10). Dövlətə mühüm qayğı aktoru kimi belə münasibət əvvəlki bloklarda olan bir sıra suallarla uzlaşır. Respondentlərin fikrincə, ailə (övladlar) yaşlılıq dövrünün rifahında həlledici rola malik olsa da, burada dövlətin rolu da olduqca əhəmiyyətlidir. ***Belə yüksək göstərici bir tərəfdən respondentlərin dövlətə inam və gözləntisinin yüksək olmasını göstərirsə, digər tərəfdən alternativ qayğı təminatçılarının fəaliyyətinin hələ az inkişaf etməsinə dəlalət edir.*** Bu bir daha digər aktorların və qayğı təminatı üçün alternativ resursların (özəl sektor, icma resursları) inkişafı və təşviqinin vacibliyini göstərir. Belə təşviqat bir tərəfdən vətəndaşların seçim imkanlarını genişləndirə bilər, digər tərəfdən isə göstərilən sahədə birbaşa dövlət investisiyalarını daha effektiv balanslaşdırmağa imkan yaradar.

Blokun yekun sualı yaşlılara innovativ qayğı xidmətinə münasibətdə respondentlərin rəyinin öyrənilməsinə yönəlmişdir. Məlumdur ki, dövlət başçısı İlham Əliyevin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" 1 iyun 2019-cu il tarixli Sərəncamı sosial xidmətlər sistemində yeni bir istiqamət kimi ahıllar üçün günərzi xidmətlərin təşkilinə imkan yaradıb. Sərəncamın icrası işləri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmət sifarişləri əsasında ilk mərhələdə 10 şəhər və rayonda (Bakının Binəqədi, Xəzər, Sabunçu, Pirallahı rayonlarında, Sumqayıt, Gəncə və Mingəçevir şəhərlərində, Abşeron, Lənkəran, Xaşmaz rayonlarında) ahıllar üçün günərzi xidmət mərkəzləri yaradılıb (Mənbə: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin saytı, 01.10.2019).

Bu yeniliyin perspektivini proqnozlaşdırmaq üçün respondentlərə verilən *"Yaşadığınız şəhərdə (rayonda, kənddə) yaşlılara günərzi qayğı mərkəzləri açılsaydı, yaşlı qohumunuzun ora getməsinə və buna görə ödəniş etməyə razı olardınızmı?"* sualına cavablar diaqram 11-də əks olunub.

Respondentlərin 40,8%-i yaxın adamının günərzi qayğı mərkəzinə getməsinə və buna görə ödəniş etməyə razı olduğunu bildirib. 37,1% respondent isə yaxının ora getməsinə razı olmayıb. 20,6% isə yaxınının ora getməsinə razı olsa da, buna görə ödəniş etməyə çətinlik çəkəcəyini bildirib. Bu sualda təqdim olunan situasiya fərziyyə xarakterli olsa da, bəzi vacib məqamlara aydınlıq gətirməyə imkan verir.

ANOVA testi vasitəsilə təhlil onu göstərir ki, birinci cavab variantını seçənlərin aylıq gəlir səviyyəsi statistik əhəmiyyətli dərəcədə yuxarıdır (F(2)=5,685, P<0,01). Yəni yaşlı ailə üzvünün günərzi qayğı

**Diaqram 11.**



mərkəzinə getməsinə və buna görə ödəniş etməyə razı olanların ailələrinin maddi vəziyyəti ilə getməsinə razı olanlar, lakin ödəniş etməkdə çətinlik çəkəcəklərini qeyd edən, habelə yaxınının ora getməsinə razı olmayan ailələrin *maddi vəziyyəti arasında fərq statistik əhəmiyyətlidir.*

Bu sualın təhlili bizə *iki vacib nəticəyə* gəlmək imkanı verir. Birincisi, yaşlılara qayğının cəmiyyətimiz üçün innovativ təşkil forması olan günərzi qayğı mərkəzlərinin açılması perspektivli addımdır. Çünki ona müsbət yanaşanların ümumi faiz göstəriciləri kifayət qədər yüksəkdir. İkincisi isə respondentlərin ailələrinin maddi vəziyyətinin onların innovativ qayğı təşkilinə münasibətinə statistik əhəmiyyətli təsir etməsi qayğı təşkili formalarının əslində sərt və dəyişməz olmaması, insanların maddi vəziyyətləri imkan verdiyi halda dəyişiklik və yeni təcrübələrə açıq olması qənaətinə gətirib çıxarır.

Beləliklə, respondentlərin yaşlılara qayğı üzrə müxtəlif sosial aktorlara münasibətinin öyrənilməsi ailə qayğısı modelinin yüksək normativliyi, dövlətə münasibətdə yüksək inam və gözləntini, könüllü hərəkatları, xeyriyyə cəmiyyətləri, habelə özəl sektorun və icma resurslarının reallaşması üçün xüsusi proqram və təbliğat işlərinin əhəmiyyətini aşkar etməyə imkan verir.

## V İctimai şüurda yaşlılara aid stereotip və təsəvvürlər

Cəmiyyətdə yaşlı nəslə aid olan insanların həyat şəraiti və rifah halı həm də cəmiyyətin ictimai şüurunda dərin kök salmış fikir və stereotiplərdən asılıdır. Stereotiplər çətin dəyişən fikir və təsəvvürlərdir. Onlar müəyyən hallarda bəzi qruplara aid olan insanların həyat və fəaliyyətinə mane olur. Ayrıca sosial-demoqrafik qrup olaraq yaşlılara da müəyyən stereotiplər şamil edilir. Respondentlərə təqdim etdiyimiz mühakimələri yaşlılara dair normativ fikirlər də adlandırmaq olar. Onları şərti olaraq dörd qrupa ayırmışıq: təhsil və işlə əlaqədar fikir və stereotiplər; sağlamlıqla bağlı fikir və stereotiplər; ünsiyyət və sosial statusla bağlı fikir və təsəvvürlər və nəhayət, fərdiyyətçilik meyillərini dəstəkləyən fikirlər. Respondentlərdən bu fikirlərlə nə dərəcədə razı olub-olmamaları soruşulur. Cavablar statistik olaraq belə müəyyənləşmişdir:

*Birinci alt blokda* ilk sual yaşlı insanların yeni bilik və bacarıqlara yiyələnmə qabiliyyətinin respondentlər tərəfindən necə qiymətləndirildiyinə yönəlmişdir (Diaqram 12). Onlara *“Müəyyən yaşdan sonra oxuyub təhsil almaq gecdir”* fikri ilə razılaşmaq və ya razılaşmamaq təklif olunur. Adətən, cəmiyyətdə qəbul olunmuş stereotiplərə əsasən yaşlandıqca insanın idrak imkanları daralır, hafizəsi zəifləyir, bu isə müəyyən yaşdan sonra öyrənmə qabiliyyətini azaldır. Lakin göründüyü kimi, respondentlərin cəmi 31,9%-i bu mühakimə ilə tam razılaşmış, 49,8%-i isə heç razılaşmamışdır. Qeyd edək ki, bu mühakimə respondentlərin sözügedən blokda ən az razılaşdıqları mühakimədir. Eyni zamanda, bu yeganə mühakimədir ki, bura-




***Diaqram 12.***
*Təhsil və iş*

da razılaşma faizi razılaşmama faizindən aşağıdır. Bu göstərici belə nəticəyə gəlməyə imkan verir ki, ***Azərbaycanda fəal uzunömürlülük və ya fəal yaşlanma ideologiyasının inkişafı və təşviqində yaşlıların yenidən təhsil imkanlarının genişlənməsini nəzərdə tutan tədbirlər daha faydalı ola bilər.***

*"İnsan yaşlandıqca gördüyü işin keyfiyyəti azalır"* fikri ilə tam razılaşanlar 69,8%, əsasən razılaşanlar isə 17,7%-dir. Cəmiyyətdə belə fikrin geniş yayılması yaşlı insanların əmək bazarında rəqabət qabiliyyətini azaldır, yaşlılıq dövründə işsizlik problemini kəskinləşdirir. Əgər respondentlərin ümumən 87,5%-i yaşlandıqca əməyin keyfiyyətinin azalması fikri ilə razılaşırsa, bu, nəinki işədüzəlmə imkanlarını azaldır, həm də yaşlı insanların işçi kimi özünəinamına da mənfi təsir göstərir. Odur ki, ***fəal uzunömürlülük ideologiyasının cəmiyyətdə kök salması üçün ilk növbədə bu tip stereotiplərlə iş aparmağın əhəmiyyətini qeyd edə bilərik.*** Əlbəttə, yaşlandıqca əməyin həcmi, işin sürətində müəyyən dəyişikliklər baş verə bilər. Lakin burada yaşlıların təcrübəsinin, peşə vərdişlərinin işə müsbət təsir edən amil kimi dəyərini yada salmaq, həm də fərdi fərqlər məsələsini unutmamaq önəmlidir.

Altblokun üçüncü sualı respondentlərin gerontokratiyaya münasibətini öyrənməyə yönəlmişdir. Altmış beş yaşdan sonra rəhbər vəzifə tutmağın düzgün olmaması fikri ilə respondentlərin 57,8%-i tam, 9,7%-i əsasən razılaşmışdır. 65 yaş həddi pensiya yaşına uyğun olaraq seçilmişdir. Bu suala verilən cavablardan belə nəticəyə gəlmək olar ki, respondentlərin yarıdan çoxu pensiya yaşında rəhbər vəzifə tutmağı müsbət qiymətləndirmir.

Sağlamlıqla əlaqəli altblok iki sualı ehtiva edir (Diaqram 13). *"Yaşlı insanın tez-tez xəstələnməsi təbiidir"* fikri ilə respondentlərin 77,9%-i tam, 11,7%-i isə əsasən razılaşır. İlk baxışdan adi görünən bu məsələ yaşlılıq dövründə sağlamlığın hifz olunması və əlçatan tibbi xidmətlərin keyfiyyəti ilə bağlı bəzi problemlərə yol aça bilər. Belə ki, yaşlılıq dövrünə mütləq olaraq sağlamlığın itirilməsi dövrü kimi yanaşma bir tərəfdən yaşlılar tərəfindən sağlam həyat tərzi təcrübələrinə laqeyd münasibət, sağlamlığın qorunmasına biganəlik, digər tərəfdən isə səhiyyə xidmətləri sahəsində bəzi neqativ hallara (yaşlılara xidmət və müalicə-profilaktika işlərinin keyfiyyətinin aşağı düşməsinə) gətirib çıxara bilər.

Altblokun ikinci sualı yaşlıların idmanla məşğul olmağa həvəsləndirilməsinə münasibətlə bağlıdır. Respondentlərin 58,3%-i bu fikirlə tam, 23,3%-i isə əsasən razıdır. Bu sualla respondentlərin daha çox hissəsinin (81,6%-nin) razı olması fəal uzunömürlülük ideologiyasının təbliği üçün əhəmiyyət daşıyır. Bu, yaşlılar üçün xüsusi idman məşğələləri və *yarışlarının təşkilinin faydalı ola biləcəyi qənaətinə gəlməyə imkan verir.*

Üçüncü altblok yaşlılıq dövründə ünsiyyət və sosial statusla əlaqəli təsəvvür və stereotiplərə münasibətin öyrənilməsinə yönəlmişdir. Təklif olunan mühakimələr yaşlılarla ünsiyyətin xüsusiyyətlərini və yaşlılara münasibətdə davranış normalarını əhatə edir. Nəticələrdən görmək olar ki, yaşlılarla münasibətlərdə ictimai normativlik kifayət qədər yüksəkdir. Belə ki, respondentlərin 74,3%-i *"Yaşlı insanın məsləhətinə həmişə əməl etmək lazımdır"* fikri ilə tam razılığını, 20,7%-i isə əsasən razı olduğunu ifadə edib. Qeyd edək ki, bu sual respondentlərin faktiki davranışını öyrənmək məqsədini daşımır və ümumən normativliyin nə dərəcədə güclü olmasını

***Diaqram 13.*** *Sağlamlıq*



müəyyənləşdirmək üçündür. Göründüyü kimi, respondentlərin cavabları cəmiyyətimizə xas “böyüklərə hörmət” diskursuna uyğun gəlir. Buna məzmunca yaxın mühakimə nəqliyyatda yaşlılara yer verməyin lazımlılığına aiddir. Burada da respondentlərin mütləq əksəriyyəti (97,2%) razı olduqlarını bildiriblər (93,5% tam, 3,7% əsasən razı olmaqla). Respondentlərin bu iki suala verdikləri cavabların yüksək normativliyi cəmiyyətimizdə diskursiv səviyyədə böyüklərə hörmət haqqında təsəvvürlərin hifz olunması qənaətinə gəlməyə imkan verir.

*“Yaşlılar uşaq kimidir”* fikri ilə respondentlərin 78,3%-i tam, 14,9%-i əsasən razı olmaqla, ümumən 93,2%-i razılıq ifadə ediblər. Bu, kifayət qədər geniş yayılmış təsəvvür olmaqla, öz-özlüyündə bəzi suallar doğurur. Əgər yaşlılar uşaq kimidirlərsə, onda onların məsləhətinə həmişə əməl etmək nə dərəcədə düzgündür? Lakin bu ziddiyyət təsadüfi deyil. Belə ziddiyyət insanın yaşlandıqca bir sıra resurslarını faktiki olaraq itirməsi fonunda simvolik statusunun artmasının ifadəsidir. Əslində, yaşlıların uşaq kimi nəzərdən keçirilməsi bir tərəfdən onlarla ünsiyyətdə cavan nəslə emosional resurs verir, hövsələli, təmkinli olmağa yardımçı olur. Lakin digər tərəfdən belə yanaşma bəzi hallarda yaşlı insandan müstəqil olmaq imkanının alınması, onunla baş verən hadisələrə təsir və qərar qəbulu səlahiyyətlərinin azaldılmasına gətirib çıxara bilər.

Altblokda təqdim olunan digər mühakimə *“İnsan yaşlandıqca onunla ünsiyyət çətinləşir”*dir. Respondentlərin 60,2%-i bu fikirlə tam, 23,8%-i isə əsasən razılaşmışlar (ümumən 84%). Əvvəl qeyd olunan mühakimə kimi, bu fikir də ünsiyyətdə müsbət və mənfi rol oynaya bilər. Bir tərəfdən, belə inam bir növ yaşlı insanla münasibətdə əlavə emosional resursla təmin edir, daha təmkinli olmağa sövq edr. Digər tərəfdən isə yaşlı insanın təsir imkanlarının azalmasının, onun hiss və münasibətlərinin qərəzli mövqedən şərh olunmasının, haqlı irad və narazılıqlarının diqqətdən kənarda qalmasının səbəbi ola bilər.

*Diaqram 14.*
*Ünsiyyət və sosial status*



**_Diaqram 15._**
*Fərdiyyətçilik meyilləri*




Digər mühakimə yaşlı insanlara şamil olunan aparıcı sosial rollarla əlaqədardır. Belə ki, *"Yaşlı insanın əsas vəzifəsi nəvələrə qulluq etməkdir"* fikri irəli sürülür. Respondentlərin 60,7%-i bu fikirlə tam, 21,1%-i əsasən razıdırlar (ümumən 81,8% razılaşıb). Bu göstərici yaşlılıq dövrünə şamil olunan mühüm normanı ifadə edir. Bir çox hallarda yaşlı insanlar ilk növbədə ailə rolu - baba-nənə rolları prizmasından nəzərdən keçirilir. Bu rollar eyni zamanda yaşlı nəsildən ailə rollarına müvafiq olaraq kiçiklərə qayğı və qulluq göstərmək gözləntisini nəzərdə tutur. Digər tərəfdən isə müəyyən səbəblərdən bu rolların daşıyıcısı olmayan yaşlıların cəmiyyətdə stiqmatizasiya olunması, həmçinin həyatdan subyektiv məmnunluq hissinə neqativ təsir göstərə bilər. Eyni zamanda, bu, yaşlılıq dövründə özünəqayğı imkanlarının məhdudluğu kimi məsələlərin də meydana çıxmasına zəmin yarada bilər.

Növbəti altblok yaşlılıq dövründə **fərdiyyətçilik meyilləri və imkanları ilə bağlı iki mühakimədən ibarətdir** (Diaqram 15). Birinci mühakimədə "*Yaşlı insan özü üçün yaşamalıdır*" fikri irəli sürülür və respondentlərin ümumilikdə 78,4%-i bu fikirlə razı olduğunu bildirir. Bu mühakimə məzmunca yaşlıların əsas vəzifəsinin nəvələrə qulluq etmək olmaqla bağlı əvvəlki mühakimə ilə ziddiyyət təşkil edir. Lakin göründüyü kimi, bu fikirlə də razılaşanların sayı az olmayıb. Hesab edirik ki, bu nəticə yaşlılıq dövründə insanların tələbatları və yaşlılara aid gözləntilərin öz-özlüyündə ziddiyyətli olmasından qaynaqlanır. ***Belə ziddiyyət əksər cəmiyyətlərə xas olub, nəsillərarası münasibətlərin mürəkkəb və çoxtərəfi olması ilə əlaqədardır.*** Bir tərəfdən yaşlanmanı nənə-baba rolları ilə bağlayan normaların mövcudluğu, digər tərəfdən isə yaşlılığın insanın özü üçün yaşaya biləcəyi, əvvəlki həyat mərhələlərində daşıdığı müəyyən qayğılardan uzaqlaşa biləcəyi bir dövr kimi nəzərdən keçirilməsinin nəticəsidir.

Altblokun növbəti və son sualı *yaşlılıq dövründə səhayət etmək* kimi məşğuliyyətə münasibəti öyrənmək məqsədi daşıyır. Respondentlərin 68,8%-i bu fikirlə tam, 19,1%-i isə əsasən razı olublar (ümumilikdə 87,9% razı olmuşdur). Bu nəticə ehtimal olunduğundan kifayət qədər yüksəkdir. Belə ki, yaşlıların səyahət etmək praktikası, ümumilikdə səyahətin dəyərlər sistemində yer tutması bir qədər yeni və adətən, Qərb ölkələrinə və cavan nəslə xas cəhət kimi görünür. Lakin yaşlılarla əlaqəli ənənəvi təsəvvürlərin əvvəlki suallarda kifayət qədər populyar olması ilə bərabər səyahət praktikasının da yüksək razılaşma faizi qazanması ***yaşlılıq dövrünə aid həyat ideallarında müəyyən yenilik və dəyişikliklərin baş verməsinə dəlalət edir.*** Bu həm də belə bir ehtimal irəli sürməyə imkan verir ki, gələcəkdə yaşlıların tələbat və fiziki imkanlarını nəzərə alaraq təklif olunan şəhərətrafı, ölkədaxili və həmçinin xarici turlar əhali tərəfindən müsbət qarşılana və fəal uzunömürlülük ideologiyasının cəmiyyətdə möhkəmlənməsinə xidmət edə bilər.

Göründüyü kimi, yaşlılara dair stereotip və təsəvvürlərə respondentlərin münasibəti cəmiyyətdə yaşlı nəslin həyat rifahına həm müsbət təsir etmək, həm də bəzi hallarda müəyyən məhdudiyyətlər yaratmaq potensialına malikdir.

## VI Yaşlılara münasibətdə ayrı-seçkilik halları

Bəzi hallarda ictimai həyatın fərqli sahələrində bu və ya digər şəxslər müəyyən əlamətinə görə ayrı-seçkiliyə məruz qalır. Bəzən bu əlamət şəxsin aid olduğu sosial qrupla əlaqəli ola bilər. Məsələn, yaş, bölgə, milli mənsubiyyət, gender, irq və s. insanların ayrı-seçkiliyə məruz qalmasına səbəb ola bilər. Çox zaman belə ayrı-seçkilik aydın dərk olunmur, lakin insanın həyat imkanlarına və rifahına neqativ təsir göstərir. Sorğunun növbəti hissəsində yaşlı insanların ictimai və privat sahədə rastlaşdığı ayrı-seçkiliyin respondentlər tərəfindən necə qavranıldığı öyrənilir.

Onlara *"Ölkəmizdə yaşlılara qarşı ayrı-seçkilik aşağıdakı sahələrdə nə dərəcədədir?"* sualı verilir və bu sahələr təklif olunur:

- Əmək bazarı, işəgötürmə, ictimai yerlər (məsələn, nəqliyyat), səhiyyə ocaqları (İctimai sahə);
- Yaşlı kişi və qadınların ailə və nikah məsələləri (Privat sahə).

Diaqram 16 və 17-də müvafiq suallara verilən cavablar təqdim edilir.

Respondentlərin 33%-i yaşlıların *əmək bazarı və işəgötürmədə* ayrı-seçkiliklə üzləşməsinin yüksək səviyyədə olmasının, 27,8%-i isə orta səviyyədə olmasını düşünür. Bu, ümumiyyətlə, bütün digər təklif olunan sahələrlə müqayisədə ayrı-seçkiliyin daha çox problemləşdirildiyi sahədir. Ümumilikdə 60,8% ayrı-seçkiliyin olmasını göstərib ki, bu da respondentlərin yarıdan çoxunu təşkil edir.

*İctimai yerlərdə* (nəqliyyat nümunəsində) ayrı-seçkiliyin orta səviyyədə olmasını seçən respondentlər üstünlük təşkil edir. 23,8% yüksək səviyyədə olmasını göstəribsə, 36,9%-i orta səviyyədə olmasını qeyd edib (ümumilikdə 60,7%).

Respondentlərin 18,9%-i *səhiyyə ocaqlarında* ayrı-seçkiliyin yüksək, 33,1%-i isə orta səviyyəsdə olmasını göstərib. Ümumilikdə, bu sahədə ayrı-seçkiliyin olmasını qeyd edənlər 52%, yəni respondentlərin təqribən yarısıdır ki, bu da kifayət qədər önəmli göstəricidir.

Privat sahə ictimai sahəyə nisbətən daha az problemləşdirilir. Burada ailə-nikah məsələlərində (evlənmə, boşanma kimi hallar) yaşlı insanların ayrı-seçkiliklə nə dərəcədə üzləşməsi məsələsi soruşulur. Cəmiyyətin mədəni xüsusiyyətlərini nəzərə alaraq, burada yaşlı kişilər və yaşlı qadınların üzləşdiyi ayrı-seçkilik ayrı-ayrılıqda soruşulur. Respondentlərin 14,9%-i kişilərin ailə-nikah məsələlərində üzləşdiyi ayrı-seçkiliyin yüksək, 33,7%-i orta səviyyədə olmasını qeyd edir. Qadınlar üçün bu göstəricilər uyğun olaraq, 17,6% və 28% dir. Məhz bu iki sual üzrə cavab




***Diaqram 16.*** *İctimai sahədə ayrı-seçkilik*




***Diaqram 17.*** *Privat sahədə ayrı-seçkilik*




***Diaqram 18.*** *"Dövlət Sosial Müdafiə Fonduna vaxtı-vaxtında ödənişləri etməklə insan öz yaşlılıq dövrünü təmin edir" fikri ilə nə dərəcədə razısınız?*

verməkdə çətinlik çəkənlərin sayının digər suallara nisbətən daha yüksək olması sözügedən sahələrin daha az müzakirə mövzusu olması, beləliklə də, respondentlərin bu barədə formalaşmış fikrinin olmaması ilə əlaqədardır.

Ayrı-seçkilik hallarının neytrallaşdırılması bir sıra amillərdən asılıdır. Onlar arasında müəyyən ***imtiyazların tətbiqi*** önəmli yer tutur. Bu, əsasən ictimai sahələri əhatə edir. Sorğuda respondentlərdən yaşlılar üçün hansı sahələrdə imtiyazlara tələbatın olması soruşulur. Pensiya yaşına çıxmış şəxslər üçün zəruri olan imtiyaz və güzəştlərin əhəmiyyətlilik dərəcəsinə görə sıralanması təklif olunur. Sıralamaq üçün verilən aşağıdakı sahələrdir:

*- Səhiyyə sistemində (poliklinika, xəstəxana, aptek);*

*- İctimai nəqliyyatda;*

*- Kommunal xərclərdə;*

*- Sanatoriya və istirahət ocaqlarında;*

*- Yaşlı sahibkarlar üçün müəyyən vergi imtiyazları;*

*- Təhsildə;*

*- İaşə obyektlərində (restoran, teatr).*

Nəticədə sıralama aşağıdakı kimi olmuşdur: I yerdə səhiyyə sistemi, II yerdə isə kommunal xərclər göstərilib. III sanatoriya və istirahət ocaqları, IV ictimai nəqliyyat sahəsidir. Yaşlı sahibkarlar üçün vergi imtiyazları, təhsil və iaşə obyektləri isə son yerlərdə qərarlaşıb.

## VII Pensiya yığımları və yaşlılar üçün infrastruktur haqqında ictimai rəy

Sorğunun son blokunda da yaşlı vətəndaşların rifahına təsir edən mühüm məqamlar öz əksini tapmışdır. Pensiya yığımları və yaşlılar üçün infrastruktur haqqında respondentlərin mövqeyini öyrənmək məqsədilə onlara bir sıra suallar ünvanlanmışdır.

Birinci sual respondentlərin Dövlət Sosial Müdafiə Fonduna nə dərəcədə güvənməsini müəyyən etməyə yönəlmişdir. Onlara belə bir sual verilir: *"Dövlət Sosial Müdafiə Fonduna vaxtı-vaxtında ödənişləri etməklə insan öz yaşlılıq dövrünü təmin edir" fikri ilə nə dərəcədə razısınız?*. Respondentlərin cavabları diaqram 18-də təqdim edilib.

Respondentlərin 61,3%-i tam razı olduğunu, 19,6%-i isə əsasən razı olduğunu bildirmişdir. 13,9% heç razı olmadığını, 3,6% isə əsasən razı olmadığını qeyd etmişdir. Bu suala cavab Dövlət Sosial Müdafiə Fonduna münasibətdə inam və gözləntilərin yüksək olmasının göstəricisidir. Bu sual öz nəticəsinə görə sorğunun digər blokunda respondentlərin yaşlıların rifahına görə dövlətə münasibətdə ifadə etdikləri inam və gözlənti ilə uzlaşır.

Bununla bərabər, bəzi hallarda insanlar rifahına görə məsuliyyəti bu və ya digər dərəcədə öz üzərlərinə götürürlər. Şəxsi sosial rifah səviyyəsindən asılı olaraq, vətəndaşların vaxtaşırı müəyyən yığımlar etməsi geniş yayılmış praktikadır. Onun yaşlılıq dövründə rifaha təsiretmə imkanlarını dəyərləndirmək üçün əvvəlcə respondentlərə bir qədər ümumi olan sual ünvanlanmışdır: *"Gəlirləriniz mütəmadi olaraq yığım etməyə imkan verirmi?"*. Bu suala respondentlərin 81,3%-i xeyr, 18,7%-i isə bəli cavabını verib (Diaqram 19).

Növbəti sualda isə yığımların hər hansı hissəsinin yaşlılıq dövründə rifah üçün nəzərdə tutulub-tutulmaması soruşulur. Bu suala respondentlərin 67,7%-i "bəli", 30,5%-i "xeyr" cavabı verib, 1,8%-i isə cavab verməkdə çətinlik çəkdiyini qeyd edib (Diaqram 20).




**Diaqram 19.** *"Gəlirləriniz mütəmadi olaraq yığım etməyə imkan verirmi?"*

Növbəti sual yaşlılar üçün infrastruktur barədə respondentlərin fikrini öyrənmək məqsədi daşıyır. Onlardan infrastrukturun qənaətbəxş olub-olmaması soruşulur. Yarımqapalı olan bu sualda “qənaətbəxş deyil” cavab variantını seçən respondentlərdən problemi nədə görmələri soruşulur.

Diaqram 21-dən göründüyü kimi, respondentlərin 28%-i infrastrukturun yaşlılar üçün qənaətbəxş olmasını qeyd etsə də, 46,5%-i onu qismən qənaətbəxş kimi dəyərləndirib. Heç qənaətbəxş olmadığını düşünənlər 23,1%-dir.

Respondentlərin sualın açıq hissəsində göstərdikləri problemlər bir sıra məsələləri əhatə etmişdir. Ən çox qeyd olunan problem yaşlıların *asudə vaxtını keçirməsi, istirahəti üçün müvafiq məkanların – park və klubların çatışmamasıdır.* Bu məsələ 60 dəfədən çox problem kimi qeyd olunur. Təkrarlanmasına görə ikinci yerdə yol problemi göstərilir. Yeni yolların vəziyyəti yaşlıların hərəkət sərbəstliyi üçün yararsızdır. Bu məsələ 50 dəfədən çox problemləşdirilmişdir. Maraqlıdır ki, bir neçə dəfə ayrıca olaraq yaşlı qadınların asudə vaxt keçirməsi üçün ayrıca məkanların olmaması məsələsi qeyd olunmuşdur. Bu da təsadüfi deyil. Belə ki, bir çox yaşayış yerlərində ənənəvi olaraq, yaşlı kişilərin birgə asudə vaxtını keçirmək üçün ictimai məkanlar olur (məsələn, çayxanalar və s.). Lakin xüsusilə bölgələrdə qadınlar üçün ictimai yerlər bir qədər azlıq təşkil edir. Bundan əlavə, göstərilən cavablar arasında piyada keçidlərinin olmaması, iaşə obyektlərində pandusların olmaması, konkret yaşayış yerində tibb məntəqəsinin olmaması, yolların həddən artıq narahat olması kimi variantlara da rast gəlinir.

## GƏLƏCƏK DƏYİŞİKLİKLƏR: TRENDLƏR VƏ PROQNOZLAR

Azərbaycanda yaşlıların rifahı, onların qayğı ilə təmin olunmasına təsir göstərən ictimai normalar dinamik fenomendir. Zamanın çağırışları onların tədricən dəyişməsini, yeni mənalar kəsb etməsini şərtləndirir. Baş verəcək dəyişiklikləri əvvəlcədən proqnozlaşdırmaq məqsədilə keçirilmiş sorğunu daha bir istiqamətdən təhlil etməyi məqsədəuyğun bildik. Bunun üçün sorğuda iştirak etmiş respondentlər arasından üç mühüm meyarın hər üçünə uyğun olanlar seçilib, onların cavabları ayrıca təhlil edilib. Meyarlar aşağıdakılar-




***Diaqram 20.***
*“Yığımlarınızın hər hansı hissəsi yaşlılıq dövründə rifah üçün nəzərə tutulubmu?”*

dır:

- böyük şəhərdə yaşayanlar;
- ali təhsilli (tam və ya natamam) olanlar;
- yaşı 18-35 diapazonunda olanlar.

Bu qrupa cəmi 60 respondent uyğun olsa da, onların nəticələri bir sıra səbəblərdən xüsusi önəm daşıyır. Onları ayrıca olaraq seçməyimiz təsadüfi deyil və müəyyən sosioloji qanunauyğunluqlara əsaslanır.

İstənilən cəmiyyətdə yuxarıdakı əlamətləri özündə ehtiva edən respondentlər, adətən, yeni təfəkkür tərzinin daşıyıcıları olmaqla yanaşı, həm də çox zaman digər sosial-iqtisadi və sosiomədəni qruplara nisbətən daha çox resurslara malik olurlar. Bu, onları yeni həyat strategiyalarına daha açıq edir. Eyni zamanda, ətrafdakılara öz nümunəsi ilə təsir etmək imkanları yaradır. Sosiologiyada “trend setter” (ingiliscədən tərcümədə “trend yaradanlar”) adlandırılan belə fərdlər, bir qayda olaraq, cəmiyyətdə yeni davranış formalarını təcrübə edən əhali qrupudur (Bicchieri, Funcke 2018). Bu kateqoriyaya aid olanlar cəmiyyətin hərəkətverici qüvvəsi, islahatlara daha meyilli olan fərdlərdir. Bundan əlavə, hazırda göstərilən yaş aralığında olan fərdlər müasir sosiologiyada aktual olan “milleniallar” - X nəslinin (təqribən 1980-ci illərin ortalarından 2000-ci illərin əvvəllərinə qədər anadan olan nəsil) nümayəndələridir ki, onlara xas əlamətlər də bu fərdləri mo-




***Diaqram 21.***
*“Sizcə, ölkəmizdə yaşlılar üçün infrastruktur nə dərəcədə qənaətbəxşdir?”*

**Diaqram 22.**
*Yaşlıların maddi təminatı*




dernizasiyaya daha açıq edir. Bu baxımdan göstərilən qrupa daxil olan respondentlərin cavabları önəm daşıyır, çünki onlar fərqli baxış və gözləntilərin subyekti kimi, sosial normaların dəyişməsinə səbəb olan ictimai prosesləri hərəkətə gətirmək potensialına malikdirlər.

***Aparılmış xüsusi təhlillər seçilmiş respondent qrupunun sorğunun bir sıra bölmələri üzrə cavablarında diqqətəlayiq özünəməxsusluğun olmasını aşkar etmişdir.***

## Ailə və dövlətin məsuliyyət balansına dair gənc nəslin gözləntiləri

**Maddi təminat.** *"Yaşlı insanların maddi təminatı ailənin, yoxsa dövlətin məsuliyyətidir?"* sualına göstərilən respondent qrupunun cavablarını ümumi seçmə üzrə olan nəticələrlə müqayisə edək. Diaqram 22-dən göründüyü kimi, müzakirə olunan qrupun cavabları yaşlılara maddi dəstək sahəsində fərqli yanaşmanı nümayiş etdirirlər. Bir tərəfdən, bu qrupa aid olanların daha az hissəsi dövlətin yaşlılara görə tamamilə məsuliyyət daşıdığını düşünür. Ümumi seçmədən olan 21,8%-in qarşısında bu qrupdan olanların cəmi 11,7%-i bu seçimi edib. Lakin eyni zamanda ümumi seçməyə baxdıqda onların daha az hissəsi (10,8% qarşılığında 3,3%) ailənin tamamilə məsuliyyət daşıdığını hesab edir. Bunun əvəzində isə göstərilən qrupa aid respondentlərin əksəriyyəti (73,3%-i) maddi təminat məsuliyyətinin ailə ilə dövlət arasında bərabər bölüşdürülməsinin tərəfdarıdır.

**İnstrumental qayğı.** Yaşlılara instrumental qayğı üzrə nəticələrdə fərqlər kəskin olmasa da, yenə də müəyyən qədər əvvəlki sualdakı trendi izləmək mümkündür. Ali təhsilli şəhər gəncləri yaşlılara ev işlərində yardımı əsasən ailə məsuliyyəti hesab etsələr də, tamamilə ailə məsuliyyəti hesab edənlərin faizi ümumi seçmədə olanlara nisbətən azdır (ümumi seçmədəki 52,2% qarşılığında 36,7%). Eyni zamanda, bu işlərin ailə və dövlət arasında bölüşdürülməsini daha düzgün hesab edənlər daha çoxdur (30,5% qarşılığında 46,7%) (Diaqram 23).

***Diaqram 23.***
*Yaşlılara instrumental qayğı*



***Diaqram 24.*** *Yaşlılara birbaşa qayğı*




**Yaşlılara birbaşa qayğı.** Maraqlıdır ki, ən şəxsiləşdirilmiş və daha çox emosional iştirak tələb edən birbaşa qayğıya gəldikdə, ümumi seçmədən fərqli olaraq, **ali təhsilli şəhər gənclərinin heç biri bunu tamamilə dövlətin məsuliyyəti hesab etmir** (Diaqram 24). Bunu ümumən ailənin məsuliyyətinə aid edənlərin cəmi (45%) ümumi seçmədə belə hesab edənlərin cəmindən (48,2%) çox cüzi faizlə fərqlənir. Lakin eyni zamanda bu işlərin ailə və dövlət arasında bölüşdürülməsini daha düzgün hesab edənlərin də faizi ümumi seçməyə nisbətdə daha çoxdur (39,5% qarşılığında 45%).

Beləliklə, üç əsas qayğı növü üzrə ali təhsilli şəhər gəncləri olan respondentlərin cavablarını ümumi seçmənin cavabları ilə müqayisəli şəkildə təhlil edərək belə qənaətə gələ bilərik ki, seçilmiş qrup nə ailəni, nə də dövləti yeganə məsuliyyət daşıyıcısı kimi görür və qayğı sahəsində ailə-dövlət əməkdaşlığının daha da dərinləşdirilməsinə yönümlüdür.

## Gənclər yaşlılıq dövrü haqqında: arzuolunan qayğı və yaşayış formaları

Qeyd olunduğu kimi, yaşlılıq dövrünə dair təsəvvürlər insanın əvvəlki yaş dövrlərində əhəmiyyətli həyat seçimlərinə təsir edir. Seçdiyimiz respondentlər qrupunun *"Qocalanda qayğıya ehtiyacınız olarsa, hansı yaşayış formasını arzulayardınız?"* sualına cavablarının ümumi seçmənin cavabları ilə müqayisəsi yenə də diqqətçəkən məqamları ortaya qoyur (Diaqram 25).

**Öz övladı ilə yaşamaq.** Ali təhsilli şəhər gəncləri də daha çox "öz övladımla yaşamağı" variantına üstünlük versə də, tam razıyam deyənlər ümumi seçmədəki 83,6% qarşılığında 56,7%-dir. Eyni zamanda bu variantla heç razı olmayanların faiz göstəricisi ümumi seçmədən üç dəfə yüksəkdir (6,4% qarşılığında 18,3%).

***Diaqram 25.*** *Öz övladı ilə yaşamaq ehtimalına münasibət*



*Diaqram 26.*
*Digər qohumlarla yaşamaq ehtimalına münasibət*




**Digər qohumlarla yaşamaq.** Ümumi seçmə ilə ən çox uyğunluq "Digər qohumlarla yaşamaq" ehtimalı ilə bağlı cavablardır (Diaqram 26). Burda ali təhsilli şəhər gənclərinin seçimləri ümumi trendlə üst-üstə düşür. Belə ki, onların 90%-i bu ehtimalla heç razı deyil. 5%-i isə əsasən razı deyil. Diaqram 26-dan göründüyü kimi, ümumi seçmədə heç razı olmayanların faiz göstəricisi də respondentlərin mütləq əksəriyyətini təşkil edir. Bu nəticə bir daha qayğı vəzifələrinin daha çox bir ev təsərrüfatı və nuklear ailənin üzərinə düşməsi qənaətinə gəlməyə, həmçinin müasir Azərbaycan ailəsinə yeni baxışı, müasir dövrdə ailədaxili münasibətlərin xarakterinə dair yeni tədqiqat suallarını ortaya qoyur.

**Qocalar evində yaşamaq.** Seçdiyimiz kiçik qrupa aid respondentlərin institusional qayğıya münasibəti ifadə edən cavabları diqqətəlayiq trendi izləmək imkanı verir (Diaqram 27). Qocalar evində yaşamaq ehtimalı ilə tam razılaşanların faiz göstəricisi 11,7%, yəni ümumi seçmədəkilərə (5,8%) nisbətdə təqribən iki dəfə çoxdur. Əsasən razılaşanların da faizi təqribən eyni dərəcədə yüksəkdir. Ümumi seçmədə onlar 6,5% idilərsə, bu qrupda 13,3%-dir. Eyni zamanda, heç razı olmayanların faiz göstəricisi ümumi seçmə ilə müqayisədə daha aşağı – 68,3%-dir.

Bu suala verilən cavablar seçdiyimiz respondent qrupunun institusional qayğıya ümumi seçməyə nisbətən daha tolerant yanaşmasını göstərir. Qocalıq gənclər üçün uzaq perspektiv olsa da, cavabları yalnız bu baxımdan şərh etmək düzgün olmazdı. Çünki, ümumiyyətlə, bütün suallarda bu kiçik qrupa aid olan respondentlərin aralıq cavab variantlarını da seçməsi onların cavablarının düşünülmüş olmasını göstərir.

Vacib məqam odur ki, institusional qayğıya tolerant münasibət heç də ali təhsilli şəhər gənclərinin ailə qayğısını inkar etməsi anlamına gəlmir. Ümumi seçmə ilə cavab faizlərindəki fərqlər cəmiyyətin

*Diaqram 27.*
*Qocalar evində yaşamaq ehtimalına münasibət*



bəzi yeni trendlərin astanasında olmasını göstərsə də, yenə də "öz övladımla qocalmaq" ehtimalına üstünlük verənlər respondentlərin daha çox hissəsidir. O cümlədən, xüsusi qrup olaraq seçdiyimiz ali təhsilli şəhər gəncləri qocalar evində yaşamaq variantını ümumi seçməyə nəzərən daha çox faiz göstəricisi ilə seçsələr də, bu, onların təqribən onda biridir (11,7%), onların arasında institusional qayğını ümumən inkar edənlər isə daha çoxdur (68,3%).

## Yaşlılara görə məsuliyyətin sosial aktorlar arasında bölgüsü

Ali təhsilli şəhər gəncləri də qayğı təminatçısı ola biləcək sosial aktorların hər biri üçün gələcəkdə yaşlıların tələbatlarını ödəmək üzrə məsuliyyət daşıyıb-daşımamasına ayrı-ayrılıqda münasibət bildiriblər. Bu qrupun cavablarında ümumi seçməyə nəzərən kəskin fərqlər olmasa da, yenə də müəyyən tendensiyaları izləyə bilərik.

Diqqətçəkən mühüm nəticələr bunlardır:

1) Ayrıca nəzərdən keçirdiyimiz kiçik qrupun nümayəndələri də ümumi seçmədə olduğu kimi, **yaşlılara qayğını əsasən ailə institutu və dövlətin məsuliyyəti kimi nəzərdən keçirir.** Lakin ailədən gözlənti bir qədər "yumşaq" rəqəmlərlə ifadə olunub, yəni "tam razıyam" cavabları ümumi seçməyə nəzərən bir qədər az, "əsasən razıyam" cavabları daha çoxdur (Diaqram 28).

2) Sosial işçilərin fəaliyyətində təzahür edən **dövlət qayğısına münasibətdə respondentlərin gözlənti və inamı yüksək olsa da**, ailə nümunəsində olduğu kimi, burada da rəqəmlər daha "mülayimdir". Ümumi seçmə ilə müqayisədə "tam razıyam" cavablarında azalma, "əsasən razıyam" cavablarında artım müşahidə olunur (Diaqam 29).

Cavab variantlarının seçimində belə balanslaşdırma bir tərəfdən müəyyən sosial dəyişikliklərin əlaməti, digər tərəfdən isə kiçik qrupa aid olan respondentlərin daha çox refleksiv olması ilə əlaqələndirilə bilər.




***Diaqram 28.*** *Yaşlılara görə sosial aktorların məsuliyyət bölgüsü - Ailənin məsuliyyətinə münasibət*




***Diaqram 29.*** *Yaşlılara görə sosial aktorların məsuliyyət bölgüsü - Dövlətin (sosial işçilərin fəaliyyətinə nəzərən) məsuliyyətinə münasibət*

***Diaqram 30.*** *Yaşlılara görə sosial aktorların məsuliyyət bölgüsü - Digər qohumların məsuliyyətinə münasibət*




3) Digər qohumların məsuliyyət daşıyıb-daşımamasına münasibətdə **ümumi seçmə ilə təqribən eyni faiz göstəriciləri vardır.** Lakin heç razı olmayanlar bir qədər daha azdır. Ümumi seçmədə 67% qarşılığında kiçik seçmədə bu 61,75%-dir. Beləliklə, yaşlılara qayğının təmin olunmasında ümumən ailə şəbəkəsi deyil, yaşlı insanla eyni ev təsərrüfatında yaşayan ailə üzvləri qayğının əsas aktoru kimi nəzərdən keçirilir (Diaqram 30).

4) Dostlar və qonşuların qayğı aktoru kimi populyarlığı **ümumi seçmədən fərqlənmir.** Yenə də belə qənaətə gəlmək olar ki, yaşlılara qayğının təşkilində icma resurslarının səfərbər olunması üçün əhəmiyyətli təbliğat-təşviqat kampaniyalarına ehtiyac vardır. Lakin bu halda da dost-qonşu şəbəkələrinin yaşlılara qayğının təmin olunmasında əhəmiyyətliliyinə görə ilkin mövqedə olacağı ehtimalı çox aşağıdır (Diaqram 31).

5) Özəl sektorun (qayğı üzrə ixtisaslaşan firma və agentliklər) məsuliyyəti ilə razılaşanların faiz göstəriciləri **ümumi seçmənin göstəricilərinə nisbətdə daha yüksəkdir** (Diaqram 32). Ümumi seçmədə razılaşanların sayı 46,6%-dirsə, kiçik seçmədə bu göstərici 60%-dir. Qeyd edək ki, bu seçmədə olan respondentlərin təqribən 70%-i ailəsinin maddi imkanını təsvir edərkən orta sinfə müvafiq olan variantları seçmişdir. Bu, belə qənaətə gəlməyə imkan verir ki, şəhər mühitində yaşlılar üçün özəl qayğı xidmətlərinin təşkili sosial-iqtisadi vəziyyəti orta səviyyədə olan kəsim tərəfindən müsbət qarşılana və müvafiq tələb formalaşdıra bilər.

***Diaqram 31.*** *Yaşlılara görə sosial aktorların məsuliyyət bölgüsü - Dostlar və qonşuların məsuliyyətinə münasibət*




***Diaqram 32.*** *Yaşlılara görə sosial aktorların məsuliyyət bölgüsü - Özəl sektorun məsuliyyətinə münasibət*






*Diaqram 33. Yaşlılara görə sosial aktorların məsuliyyət bölgüsü - Könüllü təşkilatlarının məsuliyyətinə münasibət*

6) Könüllü təşkilatlarının yaşlılara qayğı üzrə məsuliyyətinə inam gənc və təhsilli şəhər respondentləri arasında **daha yüksəkdir** (Diaqram 33). Ümumi seçmədə könüllü təşkilatlarının yaşlılara görə məsuliyyət daşıması ilə razılaşanlar 56%-dirsə, kiçik seçmədə bu göstərici 68,4%-dir. Hesab edirik ki, bu göstərici yaşlılara qayğının bəzi növləri üçün (məsələn, ev təsərrüfatında yardım, kiçik təmir işləri və s.) elə gənclərin özlərinin də cəlb olunmasını məqsədəuyğun edir. *Könüllü birliklərinin göstərilən sahədə aparıcı sosial aktora çevriləcəyi ehtimalı az olsa da, onların iştirakçılığı əsas qayğı aktorlarının həddən artıq yüklənməməsinə, eyni zamanda cəmiyyətdə nəsillərarası qayğı münasibətlərinin dəyər kimi möhkəmlənməsinə, gənclərin yaşlı insanların tələbatlarına daha diqqətli münasibətinin formalaşmasına zəmin yarada bilər.* Eyni zamanda, nəsillərarası anlaşılmazlıq, "biganə gənclik" kimi stereotiplərin aradan qalxmasına xidmət edər.

7) Diaqram 34-də göründüyü kimi, xeyriyyə cəmiyyətlərinə münasibətdə də ali təhsilli şəhər gənclərinin cavablarında fərq müşahidə olunur. Belə ki, xeyriyyə cəmiyyətlərinin məsuliyyəti ilə ümumi seçmədə 63,5% respondent razılaşmışdısa, kiçik seçmədə bu faiz göstəricisi 76,7%-dir. Bu əhəmiyyətli faiz fərqi onu güman etməyə imkan verir ki, xeyriyyə cəmiyyətlərinin fəaliyyətinin təşviqi, yaşlılara qayğı sahəsində belə cəmiyyətlərin təsis olunmasına dəstək, bu fəaliyyətlə məşğul olan qurum və təşkilatların müvafiq imtiyazlarla təmini yaşlılara qayğı sahəsində müsbət irəliləyişlərə, habelə cəmiyyətin hər bir sosial-iqtisadi təbəqəsinə aid yaşlıların qayğı ilə təmin olunmasına xidmət edə bilər.




*Diaqram 34. Yaşlılara görə sosial aktorların məsuliyyət bölgüsü - Xeyriyyə cəmiyyətlərinin məsuliyyətinə münasibət*

## Övladlıq borcuna dair sosial normaların dinamikası

Övladlıq borcu ilə bağlı göstəricilər bu sahədə norma və ideallarin dinamikasına aydınlıq gətirmək baxımından önəmlidir. Blokun nəticələri cədvəl şəklində təqdim olunmuşdur, lakin bəzi məqamlara ayrıca toxunmaq istərdik.

Ali təhsilli şəhər gənclərinin övladlıq borcuna dair fikir və təsəvvürləri *ümumi seçmənin göstəriciləri ilə uzlaşır, ciddi fərq və ziddiyyətlər yoxdur.* Bununla bərabər, ***kəskin normativlik bir qədər azalır*** (Cədvəl 1). Məsələn, övladların valideynlərinə dəstək olmaq üçün yaxın yerdə yaşaması ilə bağlı mühakimə ilə tam razılaşanların ümumi seçmədə faiz göstəricisi 83,75% idisə, kiçik seçmədə bu göstərici 73,33%-dir. Lakin eyni zamanda bu fikirlə əsasən razılaşanların sayı əksinə iki dəfə daha yüksəkdir (10,73% qarşılığında 23,33%).

Digər məsələlərə dair də maraqlı məqamlar üzə çıxmışdır. Bunlar Azərbaycan ailəsində müxtəlif nəsillərin nümayəndələrinin birgəyaşayışla bağlı ənənə və gözləntilərinin kiçik seçmədə nə dərəcədə ifadə olunması ilə əlaqəlidir. Məsələn, *ailənin kiçik oğul övladının valideynlərlə eyni ev təsərrüfatında yaşama ənənəsi ilə tam razılaşma faizi kiçik seçmədə əhəmiyyətli dərəcədə - iki dəfə azalmışdır* (66,58% qarşılığında 33,3%). Heç razılaşmayanların sayı isə, əksinə, təqribən iki dəfəyə yaxın artmışdır. Həmçinin, tək oğul övladının da ailə qurduqdan sonra valideynlərlə eyni ev təvərrüfatında yaşama ənənəsi ilə kiçik seçmədə tam razılaşanların faiz göstəriciləri əhəmiyyətli dərəcədə azdır (ümumi seçmədəki 75,41% qarşılığında 51,67%-dir). Bu nəticə göstərilən ənənələrin gələcəkdə davam edəcəyini sual altına qoyur və **gənc ailələrin muxtariyyətə daha çox meyil etməsi fikrini təsdiqləyir.** Yaxın yerdə, lakin ayrı yaşamaq tendensiyası isə yaşlılara qayğının təşkilində əhəmiyyətli dəyişikliklərə səbəb ola, **qayğı təminatçılarının əlçatımlığı məsələsini aktuallaşdıra bilər.**

Qeyd edək ki, qız övladının ailə qurduqdan sonra yaşlı valideynlərlə eyni ev təsərrüfatını bölməsi haqqında soruşarkən, əslində, belə bir ənənənin olmamasının fərqində idik. Lakin sualı verməkdə məqsəd övladlıq borcunun yerinə yetirilməsinin təşkilində gender fərqlərini, həmçinin onların paradoksallığını üzə çıxarmaq idi. Belə ki, ictimai şüurda yaşlılara qayğı daha çox qadın əməyi hesab olunur və ailədə qız övladının olması yaşlılıq dövründə qayğı ehtiyacının ödəniləcəyinin zəmanəti kimi qavranılır. Qız övladlarının dəyərini vurğulayarkən çox zaman məhz bu arqument ön plana çəkilir. Eyni zamanda, yetkin qız övladlarının nikaha girdikdən sonra başqa ev təsərrüfatının tərkibi olması orta yaşlı qadınlarda çox vaxt ikiqat-üçqat qayğı vəzifələrinin (öz valideynlərinə qayğı, övladlara qayğı, qayınana-qayınataya qayğı) konfliktə girməsini, rol balansı problemini, habelə bir çox hallarda adı çəkilən məsələləri müşayiət edən yüksək psixoemosional gərginliyi şərtləndirir.

**Övladlıq borcu və nəsillərarası mübadilə** ilə bağlı suallarda da biz kiçik seçmənin cavab variantlarının ümumi seçməyə nisbətən daha bərabər paylanmasını müşahidə edirik (Cədvəl 2). Yaşlı valideynlərə dəstək olmaq üçün yetkin övladların özləri, həmçinin öz övladları üçün istədiklərini qurban verməyə hazır olmasının vacibliyi haqqında mühakimələrdə kiçik seçmə respondentlərinin tam razılaşanlarının faizi azalmış, əsasən razılaşanlarının isə faizi artmışdır. Bu da ümumi normativlik fonunda norma və ideallara münasibətdə bu respondentlərin daha refleksiv olmalarının, daha çox sual etməyə, doğru olub-olmamasını bir daha düşünməyə meyilli olmasının göstəricisi kimi qiymətləndirilə bilər.

Buna baxmayaraq, *"Valideynlərin övladları üçün etdiklərinin əvəzini almağa haqqı var"* fikri ilə ali təhsilli şəhər gənclərinin tam razılaşanlarının faizi ümumi seçmədən demək olar ki, fərqlənmir və hətta bir qədər çoxdur (68,89% qarşılığında 70%). Bu, belə qənaətə gəlməyə əsas verir ki, birgəyaşayış və digər məsələlərdə kiçik seçmənin nümayəndələri fərqli tendensiyaların daşıyıcıları olsa da, daha dərin mənəvi dəyərlərə münasibətdə digər sosial-demoqrafik qruplarla eyni mövqedədirlər. Yəni onlar **övladlıq borcunun məsuliyyət və yükünü dərk edir və bunu inkar etmirlər.**

Yaşlı insanların öz övladlarından asılılığının normal qarşılanması kiçik seçmədə daha az (72% qarşılığında 60%), bununla razı olmayanlar isə daha çoxdur (27% qarşılığında 40%). Bu, onu ehtimal etməyə imkan verir ki, **təhsilli şəhər gəncləri yaşlı insan obrazını daha müstəqil görürlər.**

*Cədvəl 1*

| ÖVLADLIQ BORCU VƏ BİRGƏYAŞAYIŞ | | |
|---|---|---|
| Yetkin övladlar ailə vəziyyətindən asılı olmayaraq yaşlı valideynlərinə yaxın yerdə yaşamalıdırlar ki, lazım olanda onlara kömək etsinlər | | |
| Cavablar | Ümumi seçmə | Xüsusi seçmə |
| Tam razıyam | 83,75% | 73,33% |
| Əsasən razıyam | 10,73% | 23,33% |
| Əsasən razı deyiləm | 2,15% | 3,33% |
| Heç razı deyiləm | 3,38% | 0% |
| ÇÇ | 0% | 0% |
| Yetkin övlad sonbeşikdirsə, onun ailə qurduqdan sonra da yaşlı valideynlərilə birlikdə yaşaması daha düzgündür (oğul övladı üçün) | | |
| Tam razıyam | 66,58% | 33,33% |
| Əsasən razıyam | 15,02% | 31,67% |
| Əsasən razı deyiləm | 4,37% | 8,33% |
| Heç razı deyiləm | 13,2% | 25% |
| ÇÇ | 0,83% | 1,67% |
| Yetkin övlad tək övladdırsa, onun ailə qurduqdan sonra da yaşlı valideynlərilə birlikdə yaşaması daha düzgündür (oğul övladı üçün) | | |
| Tam razıyam | 75,41% | 51,67% |
| Əsasən razıyam | 13,45% | 30% |
| Əsasən razı deyiləm | 2,64% | 6,67% |
| Heç razı deyiləm | 7,92% | 11,67% |
| ÇÇ | 0,58% | 0% |
| Yetkin övlad tək övladdırsa, onun ailə qurduqdan sonra da yaşlı valideynlərilə birlikdə yaşaması daha düzgündür (qız övladı üçün) | | |
| Tam razıyam | 35,15% | 21,67% |
| Əsasən razıyam | 20,05% | 26,67% |
| Əsasən razı deyiləm | 5,69% | 11,67% |
| Heç razı deyiləm | 37,87% | 40% |
| ÇÇ | 1,24% | 0% |
| Yetkin övlad tək övladdırsa, onun ailə qurduqdan sonra da yaşlı valideynlərilə birlikdə yaşaması daha düzgündür (qız övladı üçün) | | |
| Tam razıyam | 22,11% | 16,67% |
| Əsasən razıyam | 16,25% | 23,33% |
| Əsasən razı deyiləm | 7,26% | 11,67% |
| Heç razı deyiləm | 52,23% | 46,67% |
| ÇÇ | 2,15% | 1,67% |

*Cədvəl 2*

| ÖVLADLIQ BORCU VƏ NƏSİLLƏRARASI MÜBADİLƏ | | |
|---|---|---|
| Yetkin övladlar yaşlı valideynlərinə dəstək olmaq üçün özləri istədikləri bəzi şeyləri qurban verməyi bacarmalıdırlar (başqa şəhərə və ya ölkəyə köçmək, asudə vaxtını özünə həsr etmək və s.) | | |
| Cavablar | Ümumi seçmə | Xüsusi seçmə |
| Tam razıyam | 61,47% | 51,67% |
| Əsasən razıyam | 16,67% | 28,33% |
| Əsasən razı deyiləm | 4,87% | 8,33% |
| Heç razı deyiləm | 16,50% | 11,67% |
| ÇÇ | 0,5% | 0% |
| Yetkin övladlar yaşlı valideynlərinə dəstək olmaq üçün öz uşaqlarına istədikləri bəzi şeyləri qurban verməyə hazır olmalıdırlar | | |
| Tam razıyam | 50.83% | 43,33% |
| Əsasən razıyam | 23,10% | 40% |
| Əsasən razı deyiləm | 6,44% | 5% |
| Heç razı deyiləm | 18,81% | 10% |
| ÇÇ | 0,83% | 1,67% |
| Valideynlərin övladları üçün etdiklərinin əvəzini almağa haqqı var (qocalanda diqqət və qayğı istəməyə, maddi təminat gözləməyə və s.) | | |
| Tam razıyam | 68,89% | 70% |
| Əsasən razıyam | 11,55% | 11,67% |
| Əsasən razı deyiləm | 4,46% | 3,33% |
| Heç razı deyiləm | 14,85% | 15% |
| ÇÇ | 0,25% | 0% |

| ASILILIQ-MÜSTƏQİLLİK | | |
|---|---|---|
| Yaşlı insanların yetkin övladlarından asılı olmaları normaldır | | |
| Cavablar | Ümumi seçmə | Xüsusi seçmə |
| Tam razıyam | 56,27% | 31,67% |
| Əsasən razıyam | 15,68% | 28,33% |
| Əsasən razı deyiləm | 6,27% | 10% |
| Heç razı deyiləm | 20,87% | 30% |
| ÇÇ | 0,91% | 0% |

## Yaşlılara dair fikir və stereotiplər: dəyişən və dəyişməyən nədir?

Cəmiyyətdə bu və ya digər dəyişikliklər çox zaman ictimai şüurda yer tutmuş təsəvvürlərin dəyişməsi fonunda baş verir. Bu proses isə ilk növbədə trendyaradanlar kimi müəyyənləşdirdiyimiz təbəqə daxilində baş verir. Bu baxımdan Azərbaycanda yaşlıların rifahına təsir göstərə bilən stereotiplərin gələcəkdə hansısa dəyişikliklərə məruz qalıb-qalmamasını proqnozlaşdırmaq üçün kiçik qrupun nəticələrinin ümumi seçmə ilə fərqini nəzərdən keçirmək yerinə düşərdi (Cədvəl 3).

**Ən vacib fərq təhsilə aid stereotipdə özünü göstərmişdir.** Burada təhsilli gənclərin cavabları ümumi seçmədən kəskin şəkildə fərqlənir. Ümumi seçmədə tam razı olanların sayı 31,9% idisə, kiçik seçmədə bu göstərici 1,7%-dir, bu isə təqribən 19 dəfə fərq deməkdir. Heç razı olmayanlar da təqribən 30% daha çoxdur. Belə əhəmiyyətli faiz fərqi təhsilli şəhər gənclərinin təhsilə yaş limitinin qoyulması ilə razılaşmamasını göstərir. Eyni zamanda, ***bütün yaşlarda fasiləsiz təhsil, öyrənmə, ixtisasartırma məsələsinin yaxın gələcəkdə daha da aktuallaşacağına işarədir.*** Bunun səbəbi həm də odur ki, müasir dövrdə əmək bazarı olduqca dinamikdir, bilik, bacarıq və vərdişlərin mütəmadi olaraq yenilənməsini, yeni peşələrə sahiblənməyə hazırlığı tələb edir. ***Əmək bazarının obyektiv şərtləri və ictimai şüurda baş verən dəyişikliklər bir daha göstərir ki, müxtəlif yaşlarda olan vətəndaşların yeni peşə və ixtisaslara yiyələnməsi üçün imkan və təkliflər zərurətə çevrilməkdədir.***

İnsanın yaşlandıqca gördüyü işin keyfiyyətinin azalması ilə bağlı stereotipik fikrə münasibətdə də ali təhsilli şəhər gənclərinin razılaşma faizi daha aşağıdır. Lakin yaşlı insanların rəhbər vəzifədə olmasına xüsusi seçmənin respondentləri ümumi seçməyə nisbətən daha az dözümlüdürlər. Belə ki, əgər ümumi seçmədə yaşlıların rəhbər vəzifə tutmasının düzgün olmaması ilə razılaşanlar 67,5%-dirsə, kiçik seçmədə 80%-dir. Bu gənc nəslin özünü iş və karyera sahəsində reallaşdırmaq istəyi, həmçinin yeni idarəetmə formalarına keçid tələbatı ilə izah oluna bilər.

Trendyaradanlar qrupunun digər fikir və stereotiplərlə bağlı cavablarının ümumi tendensiyası kəskin normativliyi göstərən rəqəmlərin bir qədər "mülayimləşməsidir". Məsələn, *"Yaşlı insanın məsləhətinə həmişə əməl etmək lazımdır"* fikri ilə ümumi seçmədə 74,26% tam, 20,71% əsasən razılaşıb. Bu, ümumilikdə 94,97% deməkdir. Ali təhsilli şəhər gəncləri arasında bu fikirlə tam razılaşanların faiz göstəricisi əhəmiyyətli dərəcədə azalsa da (46,67%), əsasən razılaşanların faiz göstəricisi təqribən iki dəfə artmışdır (41,67%). Belə maraqlı dinamika onu deməyə imkan verir ki, trendyaradanlar qrupu yaşlıların nüfuzunu qəti şəkildə inkar etmir, lakin onlar kəskin normativliyə də daha az meyillidirlər.

Fikir və stereotiplərin bir çoxunda ictimai şüurda baş verən dəyişiklik əlamətləri kiçik seçmədə tam razılaşanlarla əsasən razılaşanların faiz göstəricilərinin ümumi seçmədə olana nisbətən daha bərabər paylanmasında özünü göstərir. Məsələn, "Yaşlılar uşaq kimidir", "Yaşlı insanın tez-tez xəstələnməsi təbiidir" fikirlərinə münasibətdə biz cavabların variantlar arasında fərqli paylanmasını görə bilərik.

Beləliklə, yaşlılara aid fikir və stereotiplərə ümumi seçmə və trendyaradanlar qrupunun münasibətinin müqayisəli təhlilindən belə qənaətə gələ bilərik ki, ***bu sahədə müəyyən dəyişiklik meyilləri mövcuddur, lakin onlar fərqli sahələrdə müxtəlif dinamika ilə baş verir. Yaşlıların sosial statusu, yaşlılıq dövründə sağlamlıq kimi məsələlərdə fərqlər əsasən cüzi olsa da, təhsil sahəsinə münasibətdə bu fərq olduqca əhəmiyyətlidir.***

*Cədvəl 3*

| YAŞLILARA DAİR FİKİR VƏ STEREOTİPLƏR | | |
|---|---|---|
| TƏHSİL VƏ İŞ | | |
| Müəyyən yaşdan sonra oxuyub təhsil almaq gecdir | | |
| Cavablar | Ümumi seçmə | Xüsusi seçmə |
| Tam razıyam | 31,85% | 1,67% |
| Əsasən razıyam | 10,89% | 10% |
| Əsasən razı deyiləm | 7,26% | 8,33% |
| Heç razı deyiləm | 49,83% | 80% |
| ÇÇ | 0,17% | 0% |
| İnsan yaşlandıqca gördüyü işin keyfiyyəti azalır | | |
| Tam razıyam | 69,80% | 43,33% |
| Əsasən razıyam | 17,74% | 31,67% |
| Əsasən razı deyiləm | 4,29% | 13,33% |
| Heç razı deyiləm | 7,92% | 11,67% |
| ÇÇ | 0,25% | 0% |
| 65 yaşdan sonra rəhbər vəzifədə olmaq düzgün deyil | | |
| Tam razıyam | 57,84% | 71,67% |
| Əsasən razıyam | 9,65% | 8,33% |
| Əsasən razı deyiləm | 9,41% | 8,33% |
| Heç razı deyiləm | 22,28% | 11,67% |
| ÇÇ | 0.83% | 0% |

| ÜNSİYYƏT VƏ SOSİAL STATUS | | |
|---|---|---|
| İnsan yaşlandıqca onunla ünsiyyət qurmaq çətinləşir | | |
| Cavablar | Ümumi seçmə | Xüsusi seçmə |
| Tam razıyam | 60,15% | 50% |
| Əsasən razıyam | 23,84% | 30% |
| Əsasən razı deyiləm | 4,21% | 10% |
| Heç razı deyiləm | 11,55% | 10% |
| ÇÇ | 0,25% | 0% |
| Yaşlı insanın məsləhətinə həmişə əməl etmək lazımdır | | |
| Tam razıyam | 74,26% | 46,67% |
| Əsasən razıyam | 20,71% | 41,67% |
| Əsasən razı deyiləm | 2,89% | 6,67% |
| Heç razı deyiləm | 2,15% | 5% |
| ÇÇ | 0% | 0% |

| Nəqliyyatda yaşlılara yer vermək lazımdır | | |
|---|---|---|
| Tam razıyam | 93,56% | 83,33% |
| Əsasən razıyam | 3,71% | 10% |
| Əsasən razı deyiləm | 0,58% | 6,67% |
| Heç razı deyiləm | 1,98% | 0% |
| ÇÇ | 0,17% | 0% |
| **Yaşlı insanların əsas vəzifəsi nəvələrə qulluq etməkdir** | | |
| Tam razıyam | 60,73% | 33,33% |
| Əsasən razıyam | 21,12% | 26,67% |
| Əsasən razı deyiləm | 5,2% | 8,33% |
| Heç razı deyiləm | 12,71% | 31,67% |
| ÇÇ | 0,25% | 0% |
| **Yaşlılar uşaq kimidir** | | |
| Tam razıyam | 78,30% | 56,67% |
| Əsasən razıyam | 14,93% | 28,33% |
| Əsasən razı deyiləm | 1,24% | 6,67% |
| Heç razı deyiləm | 5,45% | 8,33% |
| ÇÇ | 0,08% | 0% |

## SAĞLAMLIQ

Yaşlı insanın tez-tez xəstələnməsi təbiidir

| Cavablar | Ümumi seçmə | Xüsusi seçmə |
|---|---|---|
| Tam razıyam | 77,89% | 53,33% |
| Əsasən razıyam | 11,72% | 30% |
| Əsasən razı deyiləm | 2,97% | 6,67% |
| Heç razı deyiləm | 7,10% | 10% |
| ÇÇ | 0,33% | 0% |
| **Yaşlılar idmanla məşğul olmağa həvəsləndirilməlidir** | | |
| Tam razıyam | 58,33% | 60% |
| Əsasən razıyam | 23,27% | 26,67% |
| Əsasən razı deyiləm | 3,38% | 6,67% |
| Heç razı deyiləm | 14,11% | 6,67% |
| ÇÇ | 0,91% | 0% |

## FƏRDİYYƏTÇİLİK MEYİLLƏRİ

Yaşlılıq dövründə insan özü üçün yaşamalıdır

| Cavablar | Ümumi seçmə | Xüsusi seçmə |
|---|---|---|
| Tam razıyam | 62,79% | 60,00% |
| Əsasən razıyam | 15,59% | 26,67% |

| | | |
|---|---|---|
| Əsasən razı deyiləm | 4,54% | 6,67% |
| Heç razı deyiləm | 16,67% | 6,67% |
| ÇÇ | 0,41% | 0% |
| Yaşlı insan üçün ən yaxşı məşğuliyyət səyahət etməkdir | | |
| Tam razıyam | 68,81% | 63,33% |
| Əsasən razıyam | 19,14% | 25% |
| Əsasən razı deyiləm | 2,48% | 5,% |
| Heç razı deyiləm | 9,32% | 6,67% |
| ÇÇ | 0,25% | 0% |

## Yaşlılara münasibətdə ayrı-seçkilik gənclərin gözü ilə

Yaşlılara münasibətdə ayrı-seçkiliyin yeniliyə meyilli olduğunu hesab etdiyimiz xüsusi seçmə tərəfindən necə qiymətləndirilməsi iki səbəbdən önəm daşıyır. Birincisi, bu amil gənc nəslin yaşlılara münasibətdə nə dərəcədə həssas olmasını göstərə bilər. İkincisi isə yaşlılara qarşı ayrı-seçkiliyin azalmasında buna diqqət edən və tənqidi yanaşan gəncliyin rolu önəmlidir (Cədvəl 4).

Cavablarda diqqət çəkən məqamlar aşağıdakılardır. Səhiyyə ocaqlarından başqa bütün digər sahələrdə xüsusi seçmənin respondentləri yaşlılara qarşı ayrı-seçkiliyin yüksək olmasını ümumi seçməyə nisbətən daha çox qeyd ediblər. Məsələn, əmək bazarı və işəgötürmədə ayrı-seçkiliyin yüksək olmasını ümumi seçmədə 33% respondent qeyd etmişdisə, ali təhsilli şəhər gənclərinin 41,67%-i belə düşünür. O cümlədən ictimai yerlərdə, eyni zamanda ailə-nikah məsələlərində yaşlılara qarşı ayrı-seçkiliyin yüksək olmasını düşünənlər xüsusi seçmədə daha çoxdur. Fikrimizcə, bu nəticələr seçdiyimiz xüsusi qrupa aid olan respondentlərin ümumən ayrı-seçkilik məsələlərinə daha həssas yanaşması, yaşından asılı olmayaraq hər bir şəxsin hüquq və imkanlarının bərabər olmasına daha çox yönümlüyünün ifadəsidir.

*Cədvəl 4*

| YAŞLILARA MÜNASİBƏTDƏ AYRI-SEÇKİLİK | | |
|---|---|---|
| Əmək bazarı və işəgötürmə | | |
| Cavablar | Ümumi seçmə | Xüsusi seçmə |
| Yüksəkdir | 33% | 41,67% |
| Orta səviyyədədir | 27,81% | 20% |
| Aşağıdır | 11,39% | 15% |
| Heç yoxdur | 25,08% | 23,33% |
| ÇÇ | 2,72% | 0% |
| İctimai yerlər | | |
| Yüksəkdir | 23,76% | 30% |
| Orta səviyyədədir | 36,88% | 35% |
| Aşağıdır | 8,5% | 3,33% |
| Heç yoxdur | 28,14% | 31,67% |
| ÇÇ | 2,72% | 0% |
| Səhiyyə ocaqları | | |
| Yüksəkdir | 18,89% | 16,67% |
| Orta səviyyədədir | 33,09% | 31,67% |

| | | |
|---|---|---|
| Aşağıdır | 9,57% | 15% |
| Heç yoxdur | 33,42% | 33,33% |
| ÇÇ | 5,03% | 3,33% |
| Ailə-nikah məsələləri (yaşlı kişilər üçün) | | |
| Yüksəkdir | 14,85% | 16,67% |
| Orta səviyyədədir | 33,66% | 26,67% |
| Aşağıdır | 13,61% | 26,67% |
| Heç yoxdur | 29,7% | 23,33% |
| ÇÇ | 8,17% | 6,67% |
| Ailə-nikah məsələləri (yaşlı qadınlar üçün) | | |
| Yüksəkdir | 17,57% | 26,67% |
| Orta səviyyədədir | 27,97% | 28,33% |
| Aşağıdır | 15,1% | 21,67% |
| Heç yoxdur | 31,27% | 16,67% |
| ÇÇ | 8,09% | 6,67% |

## Qayğı ümuminsani dəyər kimi

Sorğunun digər sahələri ilə bağlı xüsusi seçmənin cavablarında əhəmiyyətli fərqlər aşkar edilməmişdir. Lakin bir sualda olduqca mühüm fərq diqqəti cəlb edir.

Respondentlərə *"Yaşlı ailə üzvünün qayğısına qalmaq qadın işidir"* fikri ilə nə dərəcədə razılaşmaları haqqında sual verilir. Bu sual qayğının cəmiyyətdə nə dərəcədə genderləşmiş olmasına aydınlıq gətirir. Çünki ənənəvi olaraq qayğı qadın işi sayılır və məhz qadınlardan birbaşa qayğı göstərmək gözlənilir. Ailə üzvlərinə qayğı göstərmək qadınların həyat yoluna həlledici təsir edir, bir sıra hallarda digər sahələrdə onların özünü gerçəkləşdirməsinə mane olur. Eyni zamanda, kişilərin qayğıkeşlik potensialını kölgədə qoyur.

Göstərilən fikirlə ümumi seçmədə tam razılaşanlar 48,1%-dirsə, ali təhsilli şəhər gənclərinin cəmi 10%-i bununla tam razılaşmışdır. Heç razılaşmayanlar isə ümumi seçmədə 23,9% olduğu halda, kiçik seçmədə 53,3%-dir (Diaqram 35).




***Diaqram 35.*** *"Yaşlı insanın qayğısına qalmaq qadın işidir"*

Belə faiz fərqləri o qənaətə gəlməyə imkan verir ki, ali təhsilli şəhər gəncləri qayğının cəmiyyətdə kişi və qadınlar arasında daha bərabər bölüşdürülməsinə, qayğı vəzifələrinin yüksək dəyərləndirildiyi ailə münasibətlərinə və nəhayət, qayğıkeşliyin ümuminsani dəyər kimi hamıya şamil edilməsi ideyalarına meyillidirlər. Qayğıkeşliyin ümuminsani dəyər kimi qəbul edilməsi qayğı etikasının cəmiyyətdə daha layiqli yer tutmasına zəmin yarada bilər. Çünki nəticə etibarilə "qayğı etikasının mərkəzində rifahına görə məsuliyyət daşıdığımız konkret insanların tələbatlarını ödəməyin zəruriliyi tələbi durur" (Held 2006: 10). Bu etik tələbin istisnasız olaraq hamıya aid olması fikrinin ictimai şüurda kök salması daha ədalətli cəmiyyət quruculuğunda şəksiz əhəmiyyətə malikdir.

## NƏTİCƏ

Tədqiqat Azərbaycanda yaşlılara qayğı və onların rifahı ilə əlaqəli mühüm nəticələrə gəlməyə imkan verdi.

Cəmiyyətdə mövcud olan dəyərlər və ictimai şüurda yer almış təsəvvürlərə ən çox uyğun gələn *yaşlılara ailəmərkəzli qayğı rejimidir.* Bu qayğı rejimi övladlıq borcuna dair fikirlərin yüksək normativliyində, müxtəlif yaşlı respondentlərin yaşlılıq dövründə arzu etdikləri qayğı növündə, yaşlılara görə müxtəlif sosial aktorların məsuliyyət bölgüsünə münasibətdə təzahür edir. Yaşlı insanların rifahına görə ailənin gənc nəslinin mənəvi məsuliyyəti özünü birgəyaşayış normaları, övladlıq borcunu ödəmək naminə qurban verməklə bağlı ideallar kimi göstərir. Əlavə edək ki, yaşlılara ailə qayğısı qanunvericilik çərçivəsində də dəstəklənir.

Yaşlılara münasibətdə ailə və dövlətin məsuliyyət bölgüsünə dair respondentlərin cavabları onu deməyə əsas verdi ki, *birbaşa qayğı və müxtəlif ev işlərində yardım daha çox ailənin məsuliyyəti kimi nəzərdən keçirilir, maddi təminat məsələləri isə ailənin və dövlətin birgə məsuliyyəti kimi dəyərləndirilir.* Başqa sözlə, ailə sosial institut kimi yaşlılara qayğı vəzifələrindən yayınmır, lakin onların həyata keçirilməsində dövlətin dəstəyinə güvənir.

Respondentlərin yaşlılıq dövründə arzu etdikləri qayğı forması da sorğunun yuxarıda qeyd olunan nəticələri ilə uzlaşır. Belə ki, onların mütləq əksəriyyəti (92,3%) qayğının ailə modelinə üstünlük verərək, yaşlanma dövründə öz övladı ilə yaşamaq variantını seçiblər. İnstitusional qayğıya yönümlü olanlar kifayət qədər az olmaqla, 12,3% təşkil edir. Burada üzə çıxan vacib nəticə həm də respondentlərin digər qohumlarla yaşamaq istəməməsinin (87,2%) qocalar evində yaşamaq istəməməklə (87,1%) eyni dərəcədə olmasıdır. Bu nəticələr Azərbaycan ailəsinin strukturuna və ailə şəbəkəsinin həmrəylik aspektlərinə dair *yeni tədqiqat suallarını ortaya qoyur.* Eyni zamanda, qayğı təminatçısı kimi məhz bir ev təsərrüfatında yaşayan ailə üzvlərinin nəzərdən keçirildiyini göstərir.

Yaşlıların rifahına təsir göstərməyə qadir bütün sosial aktorlara *(ailə, dövlət, dost-qonşu şəbəkəsi, könüllü təşkilatları, xeyriyyə cəmiyyətləri, özəl sektor)* münasibətin ayrı-ayrılıqda təhlili göstərdi ki, burada ailə və dövlət inam və gözləntilərə görə ilk mövqeləri tutur, icma resurslarının reallaşması, xeyriyyə cəmiyyətlərinin və könüllü fəaliyyətinin reallaşması isə əlavə təşkilati səylər, təbliğat-təşviqat işləri tələb edir. Respondentlərin 73,8%-nin özəl sektorun yaşlılara qayğı sahəsində məsuliyyəti ilə razılaşması bir daha onu təsdiqləyir ki, qanunvericiliyin təkmilləşdirilməsi, sosial məsuliyyətlilik layihələrini tətbiq edən özəl şirkətlərə imtiyazların tətbiq olunması ilə Azərbaycanda yaşlılara qayğının təşkili üzrə müvafiq sahənin inkişafına nail olmaq mümkündür. Günərzi qayğı mərkəzlərinə aid suala verilən cavabların statistik təhlili bu istiqamətin inkişaf etdirilməsinin perspektivli olması qənaətinə gəlməyə imkan verir.

Pensiya yaşına çatmış şəxslər üçün *zəruri imtiyazlar* arasında səhiyyə sistemində, ictimai nəqliyyat və kommunal xərclərdə mümkün ola biləcək imtiyazlar daha çox göstərilmişdir. Yaşlıların rifah amillərindən biri olan infrastrukturla bağlı respondentlərin qeyd etdiyi əsas çətinliklər yaşlıların asudə vaxtının keçirilməsi üçün ictimai məkanların (park, klub) azlığı, ikinci yerdə isə yolların yaşlı insanların hərəkəti üçün uyğunlaşdırılmamasıdır.

Yaşlılara dair stereotiplər arasında ən çox problemləşdirilənlər onların təhsil imkanlarının və əmək bazarında şanslarının yaşa görə azalmasına səbəb olan fikirlərdir. Bu sahələrdə innovativ tədbirlərin həyata keçirilməsi fəal yaşlanma ideologiyasının təşviqində müstəsna rol oynaya bilər.

Nəticələri ayrıca emal edilmiş xüsusi seçmənin (ali təhsilli şəhər gənclərinin) cavabları onu göstərdi ki, bu kəsim ailə qayğısı normalarını, yaşlılar qarşısında gənc nəslin mənəvi borcuna dair idealları dəstəkləyir. Bununla bərabər, onlar qayğı təminatının həyata keçirilməsində daha yeni, innovativ formalara açıqdırlar və kəskin normativlikdən uzaqlaşmağa meyillidirlər. Onlar yaşlılara münasibətdə ayrı-seçkiliyə, yaşlılar üçün infrastruktur problemlərinə daha həssasdırlar. Yaşlandıqca təhsil almaq imkanlarının məhdudlaşmasına isə ümumi seçməyə nisbətən daha neqativ yanaşırlar. Cəmiyyətdə yeni trendlərin yaranmasına təsir imkanı olan ali təhsilli şəhər gəncləri həm də yaşlı ailə üzvünə qayğının genderə görə birmənalı bölgüsü ilə daha az razılaşır, bununla da qayğıya ümuminsani dəyər kimi yanaşmaya meyilli olduqlarını göstərirlər.

## TƏKLİFLƏR

"Azərbaycanda yaşlılar: qayğı və rifah" adlı tədqiqatın nəticələrini təhlil edərək, bu sahədə mümkün fəaliyyətlərə dair aşağıdakı təkliflər irəli sürülür:

1. Sorğunun nəticələri təsdiqləyir ki, Azərbaycan cəmiyyətində yaşlılara məhz *ailəmərkəzli qayğı rejimi ən arzuolunan və mövcud dəyərlərə uyğun modeldir.* Bu, müvafiq qayğı idealları, övladlıq borcu ilə bağlı sosial normalar, respondentlərin öz qocalığı ilə bağlı xəyal etdikləri qayğı formalarında özünü göstərir. Bununla bərabər, respondentlər qayğının həyata keçirilməsində dövlətlə əməkdaşlıq və balanslaşdırılmış məsuliyyət bölgüsünə yönümlüdürlər. Bunun səbəblərindən biri əsas qayğı təminatçısı kimi genişlənmiş ailəyə aid bütün qohumlar şəbəkəsinin deyil, ancaq bir ev təsərrüfatında yaşayan məhdud sayda insanların (övladlar, həyat yoldaşı və s.) qəbul edilməsidir. Başqa səbəb Azərbaycan ailəsində övlad sayının getdikcə azalması fonunda yaşlı ailə üzvünə qayğının daha yüksək maddi sərfiyyat, emosional və fiziki zəhmət tələb etməsidir. Bu baxımdan ailə qayğısına dövlət dəstəyini nəzərdə tutan proqramların həyata keçirilməsi vətəndaşların rifah halının daha da yaxşılaşdırılması üçün vacib addım ola bilər. Belə bir proqramın əsas hədəfi qayğıya ehtiyacı olan yaşlıların yaşadığı ailəyə dəstək, ailə qayğısı təminatçılarının tanınmasıdır. Bu dəstək yalnız dövlət tərəfindən deyil, həmçinin digər sosial aktorlar – icma, könüllü təşkilatları, xeyriyyə cəmiyyətləri və sosial məsuliyyət layihələri çərçivəsində fəaliyyət göstərən özəl qurumlar tərəfindən həyata keçirilə bilər. Bunun üçün aşağıdakı istiqamətlərin nəzərə alınması tövsiyə olunur:

- Yaşlılara qayğının daha da səmərəli həyata keçirilməsi üçün *ailələrlə əməkdaşlıq edən sosial işçilərin müvafiq istiqamətdə fəaliyyətinin təkmilləşdirilməsi.* Bura onların zəruri və spesifik biliklərə yiyələnməsi yönümündə təlimləndirilməsi, fəaliyyət təlimatlarının hazırlanması (təkmilləşdirilməsi) aiddir. Habelə onların işinin coğrafi əhatə dairəsinin genişləndirilməsi zərurəti də vardır. Bu sahədə müxtəlif sosial-iqtisadi təbəqələr üçün qayğı xidmətlərinin fərqli maliyyə əsasları ilə tətbiqi həyata keçirilə bilər. Məsələn, aztəminatlı ailələrdəki yaşlılar üçün sosial işçilərin əmək haqqı tam olaraq dövlət tərəfindən, digər sosial qruplarda isə əmək haqqı qismən dövlət tərəfindən və qismən ailələrin özü tərəfindən ödənilə bilər.

- Bundan əlavə, ağır durumda (yataq xəstəsi) yaşlısı olan ailələrə müavinətlərin verilmə prosesinin daha da təkmilləşdirilməsi arzuolunandır. Belə ki, bir qayda olaraq, hər hansı ailə üzvünün intensiv qayğıya ehtiyacının olması həmin ailənin rifahına kəskin təsir edən mərkəzi problemə çevrilir. Bu problemin həllində ailələrin dəstəklənməsi onların insani, emosional resurslarının tükənməsinin qarşısını almaq üçün əhəmiyyətli vasitədir.

- Yaşlılara qayğı sahəsində *özəl sektorun* iştirakçılığının təşviqi önəmlidir. Bu, ilk növbədə, göstərilən sahədə sahibkarlıq fəaliyyəti üçün zəruri həvəsləndirici mexanizmlərin işlənilməsi, qayğı xidmətləri təqdim edən özəl qurumların fəaliyyətə başlaması, günərzi qayğı mərkəzlərinin daha geniş şəkildə təşkil olunmasıdır. Habelə, sosial məsuliyyətlilik çərçivəsində özəl sektorun həyata keçirə biləcəyi layihələrin reallaşdırılması da önəmlidir.

- Sorğunun nəticələri göstərir ki, yaşlılara qayğı sahəsində *könüllü təşkilatlarının* fəaliyyətinin təşviqi vacibdir. Onların işi müxtəlif istiqamətlərdə ola bilər – ev işlərinə yardım, ünsiyyət çatışmazlığı yaşayan qocaların cəmiyyətdən izolyasiya olunmasının qarşısını almaq və s. Könüllü fəaliyyətinə gənc, orta yaşlı, həmçinin fəal yaşlıların cəlb olunması, bu işin davamlı təşkilinin təmini qayğının sosial aktoru kimi könüllü fəaliyyətinin cəmiyyətdə rolunun möhkəmlənməsinə təsir göstərə bilər. *Dövlət başçısı İlham Əliyev tərəfindən 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ilə bağlı verilən sərəncamı nəzərə alaraq, yaşlılara qayğı istiqamətində könüllü hərəkatının genişləndirilməsini önəmli hesab edirik.* Bu sahədə DOST agentliyinin təcrübəsini əsas götürmək, "Üçüncü bahar" İctimai Birliyinin və digər təşəbbüs qruplarının fəaliyyətinin miqyasını genişləndirmək tövsiyə olunur.

- Eyni zamanda, *icma resurslarının* təşviqinə də diqqət yetirmək tövsiyə olunur. İnsanların yaşadığı ərazi üzrə kimsəsiz, xəstə şəxslər haqqında məlumatlandırılması, xalqımızın qarşılıqlı yardımlaşma kimi ənənəsinin canlandırılması və təbliği (xüsusilə şəhər mühitində) cəmiyyətdə ümumən tənhalıq, anomiya hallarının azaldılması ilə yanaşı, yaşlıların həyat keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edə bilər.

- Çətin vəziyyətdə olan yaşlı vətəndaşların (xəstə, uzunmüddətli qulluğa ehtiyacı olan) rifahına müsbət təsir göstərən aktor kimi xeyriyyə cəmiyyətlərinin də rolunu qeyd etmək lazımdır. Bu sahədə müvafiq qanunvericiliyin işlənilməsi, ayrı-ayrı şəxslərin və qrupların xeyriyyəçiliyini təşviq edən mexanizmlərin həyata keçirilməsi bu istiqamətdə irəliləyişlərə nail olmaq üçün önəmlidir.

2. Təkliflərin ikinci istiqaməti ev şəraitində həyata keçirilən *muzdlu qayğı əməyinin tam mənada peşəyə çevrilməsi üçün zəruri addımların atılmasıdır.* Bunun üçün müvafiq əmək münasibətlərini tənzimləyən qanunvericiliyin işlənilməsi, yaşlıya qulluq üzrə ixtisaslaşan mütəxəssis hazırlığı xüsusi rol oynayır. Bu amillər göstərilən qayğı xidmətlərinin keyfiyyətinin yüksəlməsinə, bu sahədə neqativ halların aradan qaldırılmasına (işəgötürən tərəfindən əməyin istismarı, işçinin məsuliyyətsizliyi və s.), ən əsası göstərilən sahənin kölgə iqtisadiyyatı hüdudlarından çıxarılaraq qanunla tənzimlənən sahəyə çevrilməsinə yol açacaqdır.

3. Təkliflərin digər istiqaməti Azərbaycanda *fəal yaşlanma* ideologiyasının təbliği ilə bağlıdır. Sorğunun nəticələri göstərir ki, bu sahədə *təhsil və yenidən öyrənmə imkanlarının genişləndirilməsi* xüsusi önəm daşıyır. Bu, yaşlıların dəyişən əmək bazarında yer tapmasını, onların daha uzun müddət cəmiyyətdə özünü effektiv vətəndaş kimi hiss etməsini şərtləndirər. Qeyd etmək lazımdır ki, hazırda Azərbaycan əhalisinin yaş tərkibi yüksək əmək resurslarını şərtləndirir, yəni əmək qabiliyyətli vətəndaşların sayı çoxdur. 2018-ci il üçün onların sayı 6,4 milyon nəfər olmuşdur (Statistical Yearbook, 2018). Əmək resurslarının hifz olunması yalnız əhalinin yaş tərkibi ilə deyil, həm də yenidən təhsil və işədüzəlmədə yaş məhdudiyyətlərinin aradan qaldırılması sayəsində baş verə bilər.

Bundan başqa, yaşlıların könüllü fəaliyyətlərinə cəlb olunması, onların yaş imkanlarını nəzərə alan müxtəlif turların, mədəni proqramların təşkili məqsədəuyğundur. Fəal yaşlanmanın təmin olunması, sözsüz ki, həm də yaşlıların fiziki hərəkətliliyinin qorunub-saxlanılmasıdır. Bunun üçün isə onların ictimai məkanlarda hərəkətini daha rahat edən pandusların, aşağı hündürlüklü səki keçidlərinin olması, eyni zamanda asudə vaxtlarını keçirmək üçün məkanların yaradılması vacibdir.

4. Təkliflərin dördüncü istiqaməti Azərbaycanda yaşlıların vəziyyətinə dair *beynəlxalq indekslərin müntəzəm qaydada hesablanmasıdır.* Məlumdur ki, ötən ildən başlayaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT-nin Əhali Fondunun təşkilatçılığı ilə "Fəal yaşlanma" indeksinin hesablanmasına başlanılmışdır. Bundan əlavə, yaşlıların həyat keyfiyyətinin daha da hərtərəfli tədqiqi üçün digər indekslərin tətbiqi (məsələn, Global Age Watch) və ümumiyyətlə, Azərbaycan ailəsinə, onun strukturuna dair yeni tədqiqatların aparılmasına zərurət vardır.

Yekun olaraq qeyd etmək lazımdır ki, tədqiqat bu nəticəyə gəlməyə əsas verir ki, yaşlılara qayğı və onların rifahının yaxşılaşdırılması istiqamətində effektivliyin artırılmasının əsas yolu sosial xidmət sistemində dövlətin sifarişçi və nəzarətçi olması, icraçılığın isə dövlət və qeyri-dövlət sektoru arasında paylanmasıdır.

## Türkiyədə yaşlılara qayğı

Türkiyə İƏİT ölkələri arasında gözlənilən orta ömür uzunluğunun sürətlə artdığı ölkələr sırasındadır. Əgər 1990-cı ildə gözlənilən orta ömür uzunluğu 64,2 yaş idisə, 2018-ci ildə bu rəqəm 76 yaşa qədər yüksəlmişdir. Bundan əlavə, ölkədə yaşı 65-dən yuxarı olanların sayı 8,8% olsa da, 2060-cı ildə bu göstəricinin 22,6%-ə qədər yüksələcəyi gözlənilir. Bu amil ölkədə yaşlı vətəndaşlara göstərilən xidmətlərin vahid yanaşma ilə həyata keçirilməsi zərurətini yaratmışdır.

2019-cu ilin fevral ayında Türkiyədə yaşlılara həsr olunmuş xüsusi müşavirə keçirilmiş və həmin il "Yaşlılar ili" elan edilmişdir. Yeni təşkil olunan Şuranın fəxri sədri dövlət başçısının özü olmaqla, əsas mövzuları fəal yaşlanmanın dəstəklənməsi və yaşlı hüquqlarının gücləndirilməsi kimi müəyyənləşmişdir. Cəmiyyətin daha fəal və məhsuldar olması üçün prioritet məsələlər kimi aşağıdakılar müəyyən edilmişdir: nəsillərarası həmrəylik, fəal yaşlanma, həyat boyu öyrənmə, yaşa görə ayrı-seçkiliyin aradan qaldırılması, yaşlıların hüquqları, yaşlılara qarşı laqeydlik və onların istismarı, dəyişən ailə və cəmiyyət quruluşunda yaşlıların dəyəri, yaşlılara qayğı və yaşlı turizmi, yaşlanmanın iqtisadi tərəfləri, yaşlılara qayğı üzrə ixtisaslı kadrların hazırlanması və işlə təmin olunması, əhali siyasəti kimi məsələlərdə məlumatlılıq və həssaslığı formalaşdırmaq.

Sözsüz ki, Türkiyənin milli və dini ənənələri yaşlılara qayğının ailə modelinin daha geniş yayılmış olmasını şərtləndirir. Dövlətin son onilliklərdə sosial riskləri idarə etməkdə rolunun artmasına baxmayaraq, qayğı vəzifələrinin əhəmiyyətli hissəsi ailələrin üzərindədir. Bu sahədə aparılmış çoxsaylı tədqiqatların birinə görə, yaşlı insanların 84%-i öz evində, 9%-i övladlarının evində, yalnız 4%-i qocalar evində yaşamaq istədiklərini bildiriblər.

Türkiyədə uzunmüddətli qayğı xidmətləri sosial yardım prinsipindən çıxış edərək təşkil olunur. Qocalar evləri mövcud olsa da, orada yaşlı əhalinin kiçik bir hissəsi (0,4%-i) yaşayır. Bundan əlavə, reabilitasiya və günərzi qayğı mərkəzləri də mövcuddur, lakin ora cəlb olunanlar daha azdır. Ümumən, Türkiyədə yaşlılara qayğı sahəsində qarşıda duran problemlər müxtəlif tip qayğı xidmətlərinin əlaqələndirilməsi, xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, bu xidmətlərin standartlaşdırılması və onlar haqqında qayğıya ehtiyacı olan şəxslərin yetərincə məlumatlandırılmasıdır.

**Mənbə:**

*Yaşlılık Şurası/ 20-22 Şubat 2019 http://www.yasliliksurasi.gov.tr/index.html*

*Aysan, M. F., & Aysan, U. (2016). Who Cares?: Elderly Care in Turkey. Economia & lavoro, 50(3), 33-46.*

## Rusiyada yaşlılara qayğının müasir vəziyyəti

Rusiya Federasiyası əhalinin sürətlə qocaldığı ölkələr siyahısındadır. Hazırda bu ölkənin əhalisinin təqribən 20%-i yaşı 60-dan yuxarı olanlardır. Orta ömür uzunluğu artsa da, analoji demoqrafik tərkibə malik olan bir sıra digər ölkələrdən fərqli olaraq, Rusiyada yaşlıların fiziki sağlamlıq göstəriciləri daha aşağıdır. Bu isə səhiyyə sisteminin üzərinə düşən ciddi məsələlərdən biridir.

2016-cı ilin fevralında hökumət tərəfindən "2025-ci ilə qədər yaşlı nəslə aid vətəndaşların maraqları naminə fəaliyyət strategiyası" təsdiqlənmişdir. Onun məqsədi yaşlı nəslin nümayəndələrinin həyat səviyyəsi və keyfiyyətinin yaxşılaşdırılması, orta ömür uzunluğunun artırılmasıdır. Hazırda yaşlıların problemləri müxtəlif resurslar – ailə, özəl xidmətlər, dövlətin sosial xidmətləri, ictimai təşkilatlar tərəfindən həll olunur.

Ailə qayğısı mədəni ideallara uyğun gəlsə də, ailələrin nuklearlaşması, övlad sayının azlığı, miqrasiya və s. səbəblərdən qayğının təşkilinin yeni formalarına ehtiyac yaranmışdır. Rusiyada yaşlılara yönümlü qayğının yeni təşkili formaları yaşayış yerinin tipindən asılı olaraq dəyişir.

Ümumilikdə ölkə üzrə dövlətin sosial xidmətlərinin əhatə dairəsi kütləvi xarakter daşıyır, müxtəlif sorğular onlara inamın yüksək səviyyədə olmasını göstərir. Lakin bu xidmətlərin yüksək bürokratizasiyası və fərqli tələbatlara cavab verməməsi digər xidmət sahələrinin də inkişafına ehtiyac formalaşdırır.

Böyük şəhərlərdə yaşlılara özəl qayğı xidmətləri inkişaf edir, əyalətlərdə isə məhdud səviyyədə də olsa, müxtəlif qeyri-hökumət təşkilatları fəaliyyət göstərir. Burada həmçinin tənha yaşlıların tanış ailə tərəfindən qəyyumluğa götürülməsi praktikası da institutlaşır və dövlət tərəfindən dəstəklənir. Bu, yaşlıların ev, ailə mühitində qayğı almasını, eyni zamanda dövlətin sosial xidmətlərinin yükünün bir qədər azalmasını şərtləndirir.

Yaşlılara qayğı sahəsində özəl xidmətlər getdikcə yayılsa da, yaşlıların dövlətə etimadı özəl xidmətlərin də dövlətin sifarişi və təşviqi vasitəsilə həyata keçirilməsinin daha effektiv olduğunu göstərir. Tək yaşayan və müxtəlif səbəblərdən ailə üzvünün birbaşa yardımını almayan yaşlılar üçün evdə mövsümi işlərə bəzi hallarda könüllü təşkilatları da cəlb olunur.

Bundan əlavə, ölkədə həm dövlət, həm də özəl qocalar evləri fəaliyyət göstərir. Daha bir alternativ “sosial evlər”dir ki, burada mənzillər xüsusi olaraq yaşlıların tələbatlarına uyğunlaşdırılmış, yaşayış yeri bütün sutka ərzində dispetçer xidməti və tibb işçisi ilə təmin olunmuşdur. Bu innovativ layihələrin icrasına yeni başlanılmış və hələ yalnız Rusiyanın böyük şəhərləri üçün nəzərdə tutulmuşdur.

**Mənbə:**


*Григорьева, И. А. (2005). Приоритеты социальной политики: пожилые люди. Журнал социологии и социальной антропологии, 8(3).*

*Парфенова, О. (2019). Ключевые агенты заботы о пожилых в современной России. Редколлегия: И. Елисеева и др. с:22-33.*

*Стратегия действий в интересах граждан старшего поколения в Российской Федерации до 2025 года/ УТВЕРЖДЕНА распоряжением Правительства Российской Федерации от 5 февраля 2016 г. № 164-р.*


## Gürcüstanda yaşlılara qayğı: ailə və ictimai təşkilatlar

Gürcüstanda da əhalinin yaşlanması ilə paralel olaraq əhalinin təbii artımı qeyri-qənaətbəxşdir. Beynəlxalq proqnozlara görə, 2030-cu ildə ölkədə yaşı 65-dən yuxarı olanlar ümumi əhalinin beşdə birinə bərabər olacaqdır. Bu səbəbdən yaşlılara qayğının təşkilinin yenidən qurulmasına tələbat formalaşmaqdadır.

Yaşlılara qayğı əsasən ailə mühitində yaxın qohumlar tərəfindən həyata keçirilir. Bununla bərabər, qeyri-hökumət təşkilatları ev qayğısına müəyyən dərəcədə öz töhfələrini verirlər. Uzun illər Sağlamlığa qayğı üzrə Dövlət Proqramı yaşlı vətəndaşların xüsusi ehtiyaclarını nəzərə almamış, yalnız 2012-ci ildən etibarən pensiya yaşında olan əhali həmin sənəddə ayrıca kateqoriya kimi qeyd olunmuşdur. Lakin ev qayğısı yenə də Dövlət Proqramından kənarda qaldığından bu sahədə olan məsələlər ailə və qeyri-hökumət təşkilatlarının məsuliyyətində olmaqda davam edir.

QHT-lərin məqsədi ev qayğısından asılı olan insanların, habelə onların ailə üzvlərinin həyat keyfiyyətini yaxşılaşdırmaqdır. Bu sahədə əsas təşkilatlar "Ev Qayğısı" Koalisiyası və Karitas Gürcüstandır. Bu təşkilatlar ev şəraitində qayğıya ehtiyacı olan yaşlılara tibbi, sosial xidmətlər təşkil edir, onların gündəlik fəallığını stumullaşdırır, yaxınlarını məlumat və psixoloji dəstəklə təmin edir. Karitas analoji beynəlxalq təşkilatın üzvü olaraq, daha çox xarici donorlar vasitəsilə maliyyələşir və fəaliyyətini xristian icmasına yönəldir. "Ev Qayğısı" Koalisiyasının isə 2013-cü ilə qədərki büdcəsinin 83%-ni xarici xeyriyyəçilərin ianəsi, 15%-ni dövlət maliyyəsi, 2%-ni isə birbaşa ödənişlər təşkil edirdi. Bu təşkilatlar uzun illər fəaliyyət göstərsə də, Gürcüstan üzrə dəstəyə ehtiyacı olan bütün vətəndaşları tam əhatə etmir, ailə və yaxın qohumlar yaşlı insanların əsas qayğı təminatçıları olaraq qalırlar.

Bundan başqa, Gürcüstanda Palliativ Qayğı Proqramı da həyata keçirilir. Onun vasitəsilə sağalmaz xəstələrə (habelə yaşlı xəstələrə) ambulator xidmətlər təklif olunur. Lakin bu sahədə də müəyyən məhdudiyyətlər qalmaqdadır. Belə ki, proqrama görə, bir xəstənin yalnız səkkiz müraciətinə baxılır və ona xidmət altı ay müddəti ilə məhdudlaşıb. Bir sıra hallarda isə bu limitlər xidmətin yetərsizliyi probleminin yaranmasına gətirib çıxarır.

**Mənbə:**


*B.de Bruijn, M. &Chitanava. AGEING AND OLDER PERSONS IN GEORGIA. 2017.*

*Caritas Georgia / Elderly health and So-*

*cial Care. https://caritas.ge/en/elderly-health-social-care/*

*Verulava, T.,Adeishvili, I., Maglakelidze, T. (2016). Home care services for elderly people in Georgia. Home Health Care Management & Practice, 28(3), 170-177.*

## Fransada yaşlılara qayğı: problemlər, alternativlər

Yaşlılara qayğı məsələləri son onilliklərdə Fransada ən çox müzakirə edilən və ciddi ictimai-siyasi debatlara səbəb olan sosial problemlərdəndir. Hazırda ölkə əhalisinin 20%-ə qədərini məhz yaşlı vətəndaşlar təşkil edir. Onlara qayğı sahəsində bir sıra innovativ təcrübələr reallaşsa da, hələ də həll olunmasını gözləyən problemlər mövcuddur. Mütəmadi olaraq aktuallaşan məsələlər arasında yaşlı insanların həyat keyfiyyəti və onlar üçün mövcud olan xidmətlərin müxtəlif sosial-iqtisadi təbəqələr üçün əlçatanlığının qeyri-bərabər olması xüsusi yer tutur.

2016-cı ildə Sosial Münasibətlər, Sağlamlıq və Qadın Hüquqları Nazirliyi ilə Ailə, Uşaq, Yaşlılar və Muxtariyyət üzrə Dövlət Komitəsi tərəfindən cəmiyyətin əhalinin qocalmasına adaptasiyası üçün qanun qəbul edilmişdir. Qanunda yaşlı insanlar və onların yaxınlarının gündəlik həyatını yaxşılaşdırmaq üçün konkret tədbirlər, yardım edən və yaxınların tanınması və dəstəyi, yaşlı insanların muxtariyyətini itirməsinin qarşısının alınması, onların hüquq və azadlıqlarını təmin etməklə sosial müdafiəsini yaxşılaşdırmaq məsələləri yer alıb. Qanun yaşlıların məhz ev şəraitində aldığı qayğını yaxşılaşdırmağı prioritet məsələ kimi ön plana çəkir, ev şəraitində onların vəziyyətini dəyərləndirən və lazımi yardımı göstərən tibbi-sosial dəstək komandalarının işini nəzərdə tutur.

Göstərilən əsas problemlərdən biri yaşlılara qayğının daha çox iki sosial aktor – dövlət və ailə tərəfindən həyata keçirilməsi, bu iki tərəfin həddən artıq yüklənməsidir. Bu səbəbdən digər aktorların təşviqinin zəruriliyi qeyd olunur. Başqa bir müzakirə mövzusu qocalar evində yaşayan insanların sosial təcridliyini azaltmaq məqsədilə bu müəssisələrin digər müəssisələrlə (məktəb, bağça) qismən birgə fəaliyyətini təmin etməkdir. Məsələn, yaşlıların və məktəb şagirdlərinin ümumi məkanda nahar etməsi vasitəsilə nəsillərarası əlaqəni stimullaşdırma dəstəyini qeyd etmək olar.

Dövlətin təşəbbüsü ilə "Yaşlı insanlar üçün - Yaşlı insanların muxtariyyəti və onları sevənlərin dəstəyi" milli informasiya portalı (Pour les personnes âgées - Portail national d'information pour l'autonomie des personnes âgées et l'accompagnement de leurs proches) yaradılmışdır. Burada yaşlılar üçün geniş xidmətlər spektri təklif olunur: ev şəraitində yaşayan yaşlılar üçün müvafiq xidmətlər, ev, yoxsa qocalar evində yaşamaq arasında seçim etmək qarşısında qalan insanlara dəstək, öz muxtariyyətini qoruyub-saxlamaq istəyən yaşlılar üçün müavinətlər, eyni zamanda yaşlıya qulluq edən şəxslərin və ailə üzvlərinin dəstəyi üçün lazım olan xidmətlər yer almışdır.

Ümumilikdə isə hazırda Fransada bütün vətəndaşlar üçün ev qayğısı xidmətləri mövcuddur. Bu xidmətlər yaşlılar, əlillər və çətin vəziyyətdə olan ailələr üçün təklif olunur. Bura şəxsi xidmətlər, yardım və dəstək xidmətləri, dayəlik və s. xidmətlər daxildir. Bu xidmətlər öz-özlüyündə Əmək Məcəlləsində əks olunmuş və ailələrin gündəlik həyatda yardım və dəstəyə olan tələbatlarını ödəməyə yönəlmişdir.

**Mənbə:**

*Aides et soins à domicile/ Ministère des Solidarités et de la Santé/*

*https://solidarites-sante.gouv.fr/affaires-sociales/personnes-agees/droits-et-aides/article/aides-et-soins-a-domicile*

*La loi relative à l'adaptation de la société au vieillissement/ 31.03.2017/ https://www.pour-les-personnes-agees.gouv.fr/actualites/la-loi-relative-ladaptation-de-la-societe-au-vieillissement*

*Pour les personnes âgées. Portail national d'information pour l'autonomie*

*des personnes âgées et l'accompagnement de leurs proches https://www.pour-les-personnes-agees.gouv.fr/*

*Rapport de la concertation Grand âge et autonomiehttps://solidarites-sante.gouv.fr/affaires-sociales/personnes-agees/concertation-grand-age-et-autonomie/article/rapport-de-la-concertation-grand-age-et-autonomie*

*Vieillesse: un rapport très attendu remis au gouvernement/ 28.03.2019 https://www.lepoint.fr/sante/vieillesse-un-rapport-tres-attendu-remis-au-gouvernement-28-03-2019-2304368_40.php*

# İSTİNADLAR


Azərbaycan Respublikası Konstitusiyası

Azərbaycan Respublikasının Ailə Məcəlləsi

Azərbaycan Respublikasının Əmək Məcəlləsi

"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli № 55-IIIQ nömrəli Qanunu

"Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 30 dekabr 2011-ci il tarixli № 275-IVQ nömrəli Qanunu

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il № 54-IIIQ nömrəli Qanunu

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu/ http://www.e-qanun.az/framework/41080

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu/ http://e-qanun.az/framework/43114

Ahılların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin istiqamətlərindən biridir/ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin saytı. 01.10.2019/ http://sosial.gov.az/post/2652. Müraciət tarixi: 07.10.2019

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi/ Əhalinin yaş qrupları üzrə çəkisi/ https://www.stat.gov.az/source/demoqraphy. Müraciət tarixi: 21.02.2020

Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı/ http://www.e-qanun.az/alpidata/framework/data/11/f_11600.htm. Müraciət tarixi: 17.02.2020

Əmək bazarı, Statistical Yearbook, Baku-2018 /Methodological explanations

Pensiyalar 16,6 faiz artırıldı/ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. 06.02.2020/ http://sosial.gov.az/post/3161. Müraciət tarixi: 07.02.2020

Вердиева Н. (2019). Как стареет население Азербайджанской Республики: причины и потенциал социально-экономического развития./ Население и экономика 3(3): 43–73

Гезалова А., Эфендиев Р. (2017). Некоторые аспекты демографического старения населения / AMEA İqtisadiyyat İnstitutu "Elmi əsərlər" № 5, 23-29

Здравомыслова, Е. А., & Темкина, А. А. (2015). 12 лекций по гендерной социологии: учебное пособие. Издательство Европейского университета в Санкт-Петербурге

Bicchieri, C., & Funcke, A. (2018). Norm change: Trendsetters and social structure. Social Research: An International Quarterly, 85(1), 1-21.

Held, V. (2006). The ethics of care: Personal, political, and global. Oxford University Press on Demand.

Hochschild, A. R. (2003). The commercialization of intimate life: Notes from home and work. Univ of California Press.

Lewis J. (1992) Gender and the Development of Care Regimes // Journal of European Social Policy.. Vol. 2. N 3. P. 159–73

Scott J. (2014) Oxford Dictionary of Sociology/ Oxford University Press

OASIS Old Age and Authonomy: The Role of Service Systems and Intergenerational Family Solidarity (2003) / Final Report. Ed. By Lowenstein A., Ogg J., The University of Haifa, Israel

Political Declaration and Madrid Interntional Plan of Action on Aging (2002)/ United Nations, New-York

Population Situation Analysis: Beyond the Demographic Transition in Azerbaijan (2015) / Author: Avdeev A., UNPFA/UNDP

Thelen, T. (2015). Care as social organization: Creating, maintaining and dissolving significant relations. Anthropological Theory, 15(4), 497-515.

What is healthy Aging/World Health Organization https://www.who.int/ageing/healthy-ageing/en/

What UNECE does for you / United Nations Economic Comission for Europe

World Population Aging (2017) / United Nations Department of Economic and Social Affairs Population Division/ New York

World Population Aging - Highlights (2017/ United Nations Department of Economic and Social Affairs Population Division/ New York

## QEYDLƏR

## QEYDLƏR

## QEYDLƏR

## QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

www.stm.az info@stm.az